Azərbaycanın elm və mədəniyyət xadimləri

# Hüseyn Razi

# BİBLİOQRAFİYA

Naxçıvan - 2015

*AMEA Naxçıvan Bölməsi Rəyasət Heyətinin*
*26 may 2015-ci il tarixli 05/7 nömrəli qərarı ilə*
*(protokol № 05) çapa tövsiyə edilmişdir.*

Tərtib edən: **Fərman Xəlilov**
*filologiya üzrə elmlər doktoru*

Rəyçi: **İsmayıl Hacıyev**
*Azərbaycan MEA-nın həqiqi üzvü,*
*tarix üzrə elmlər doktoru, professor*

Elmi redaktor: **Əbülfəz Quliyev**
*Azərbaycan MEA-nın müxbir üzvü,*
*filologiya üzrə elmlər doktoru, professor*

*Kitaba Azərbaycan Respublikasının əməkdar incəsənət xadimi, şair Hüseyn Raziyə həsr olunan bəzi məqalələr, əsərləri və haqqında yazılanlara aid 1742 mənbəni əhatə edən biblioqrafiyası, müxtəlif tanınmış şəxslərdən və bəzi oxuculardan aldığı məktublar, həyat və yaradıcılığını əks etdirən fotoşəkillər daxil edilmişdir.*

***Hüseyn Razi, Biblioqrafiya.*** *Naxçıvan: "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi, 2015, 304 səh.*

ISBN 978-9952-8237-5-2

4700000000
053-2015

© "Əcəmi" 2015.

# MÜNDƏRİCAT

Biblioqrafiya haqqında bir neçə söz (*Fərman Xəlilov*) .................... 5
Hüseyn Məmməd oğlu Rzayevin (Razinin) həyat və yaradıcılığının əsas tarixləri .................... 19
DƏYƏRLƏNDİRMƏ
Hüseyn Razi müasirlərinin gözü və sözü ilə .................... 23
Yavuz Axundlu. Hüseyn Razinin sənət dünyası .................... 27
Muxtar Qasımzadə. Söz çeşməsi .................... 35
Xanəli Kərimli. Etiraf insanın ucalığıdır .................... 38
Aydın Canıyev. Ona "Naxçıvanın Səməd Vurğunu" deyirdilər .................... 42
Zakir Rzayev. Atamın cəbhə xatirələri .................... 44
Anım günündə .................... 47
Hüseyn Əzim. Qəzəl .................... 50
Azad Talışoğlu. Səninlə .................... 51
Rafiq Oday. "Keçəl Həmzə" şeirinin müəllifinə .................... 52
Ramiz Heydər. Mənim şair dostum .................... 53
ƏSƏRLƏRİNİN BİBLİOQRAFİYASI
Kitabları .................... 55
Şeirləri .................... 56
Poemaları .................... 72
Povestləri .................... 73
Dramları .................... 73
Tərcümələri .................... 73
BAŞQA DİLLƏRƏ TƏRCÜMƏ OLUNAN ƏSƏRLƏRİ
Türk dilində .................... 75
Rus dilində .................... 76
Fars dilində .................... 78
Fransız dilində .................... 78
ƏDƏBİ-TƏNQİDİ MƏQALƏLƏRİ
Azərbaycan dilində .................... 78
Rus dilində .................... 169
İngilis dilində .................... 169
HƏYAT və YARADICILIĞI HAQQINDA ƏDƏBİYYAT
Azərbaycan dilində. Dövri mətbuat və kitablarda .................... 170
Ensiklopediya, biblioqrafiya, salnamə, proqram və kataloqlarda . 188
Müxtəlif dillərdə .................... 192

NAXÇIVAN MR DÖVLƏT ARXİVİNDƏ H.RAZİYƏ MƏXSUS OLAN 700 nömrəli FONDDA QORUNAN MATERİALLAR
H.Razinin əlyazmaları. Şeirləri .................................................. 195
Poemaları........................................................................... 197
Povestləri........................................................................... 197
Romanları.......................................................................... 197
Dramları ........................................................................... 198
Məqalələri ......................................................................... 198
H.Raziyə gələn məktub və təbrik teleqramları............................. 200
H.Razinin tərcümeyi-hal sənədləri............................................ 202
H.Razinin təsviri sənədləri ..................................................... 204
H.Razi haqqında ................................................................. 205
H.Razinin fonduna daxil olan sənədlərin siyahısı........................ 206
S.MÜMTAZ adına AZƏRBAYCAN RESPUBLİKA DÖVLƏT ƏDƏBİYYAT və İNCƏSƏNƏT ARXİVİNDƏ H.RAZİYƏ MƏXSUS OLAN 298 nömrəli ŞƏXSİ FONDDA QORUNAN ƏDƏBİ-BƏDİİ MATERİALLAR ............................................. 208
H.RAZİYƏ YAZILAN MƏKTUBLAR ..................................... 209
H.RAZİNİN ƏDƏBİ-TƏNQİDİ və PUBLİSİSTİK MƏQALƏLƏRİNİN ƏLİFBA GÖSTƏRİCİSİ
Azərbaycan dilində.............................................................. 231
Rus dilində ........................................................................ 266
İngilis dilində ..................................................................... 266
HAQQINDA YAZAN MÜƏLLİFLƏRİN ƏLİFBA GÖSTƏRİCİSİ
Azərbaycan dilində.............................................................. 266
Rus dilində ........................................................................ 269
Fars dilində........................................................................ 270
Fransız dilində.................................................................... 270
Müştərək müəlliflər............................................................. 270
H.RAZİNİN ƏSƏRLƏRİ və HAQQINDA YAZILANLARIN DƏRC OLUNDUĞU MƏTBUAT ORQANLARI və ELMİ NƏŞRLƏR ............................................................... 271
FOTOŞƏKİLLƏR.............................................................. 274

# BİBLİOQRAFİYA HAQQINDA BİR NEÇƏ SÖZ

XX əsrin ikinci yarısında Azərbaycan poeziyasının tanınmış nümayəndələrindən olan Hüseyn Razi (1924-1998) yarım əsrə yaxın zəngin bir yaradıcılıq yolu keçmiş, əsərlərinin mövzusu, ideya-məzmun və bədii xüsusiyyətləri ilə diqqəti cəlb edən bir sənətkar kimi öz imzasını ədəbiyyat tariximizə ata bilmişdir.

1998-ci ilədək, yəni dünyasını dəyişənədək onun müxtəlif şeirləri, poemaları, nəsr əsərləri və pyesləri dövri mətbuatda dərc edilmiş, 14 kitabı çap olunmuş, 6 pyesi tamaşaya qoyulmuş, yüzlərlə ədəbi-tənqidi məqaləsi və publisistik yazıları (məqalə, oçerk, felyeton, müsahibə, reportaj, xronika, icmal, xatirə, replika, zarisovka, rəy, təəssürat və s.) müxtəlif mətbuat orqanlarında oxuculara təqdim olunmuş və beləliklə, o, xalq içərisində gözəl şair, nasir, dramaturq və publisist kimi məşhurlaşmışdır.

1950-1997-ci illər ərzində Naxçıvanın ədəbi-mədəni və ictimai-siyasi həyatında respublika səviyyəli elə bir tədbir (yazıçıların plenum və müşavirələri, ədəbi-bədii gecələr, görkəmli şəxsiyyətlərin yubileyləri, əlamətdar gün və bayramlar, elmi-praktik konfranslar, müxtəlif respublikaların ədəbiyyat və incəsənət günləri və s.) göstərmək çətindir ki, H.Razi onun iştirakçısı olmasın. Bu tədbirlərin əksəriyyətində o, aparıcı mövqedə olmuş və vətəndaşlıq borcunu layiqincə yerinə yetirmişdir.

H.Razinin yaradıcılıq istiqamətlərini əks etdirən əsərlərini belə qruplaşdırmaq olar:

**1.Bədii əsərləri:** lirik şeirlər, poemalar, pyeslər, hekayə, novella və povestlər.

**2.Ədəbi-tənqidi məqalələri və elmi-tədqiqat işi: ("İrəvanda Azərbaycan ədəbi mühiti")**

**3.Publisistik əsərləri:** məqalələr, felyetonlar, oçerklər, məktublar, müsahibələr, çıxışlar, rəylər, replikalar, gündəlik qeydlər

və xatirələr.

**4.Tərcümələri:** bəzi türk, ərəb, rus, özbək, bolqar, avar, fransız şairlərinin şeirləri və dünyanın məşhur yazıçılarının aforizmləri.

H.Razinin yaradıcılığı keçən əsrin 50-90-cı illərində Azərbaycan, həmçinin ümumsovet ədəbi prosesi ilə sıx surətdə bağlı idi. Onun əsərləri yaşadığı dövrün ümumi vəziyyəti, ictimai-siyasi ab-havası, əhvali-ruhiyyəsi haqqında müəyyən təsəvvür yaratması baxımından çox əhəmiyyətlidir. Şairin ədəbi irsinin böyük bir hissəsi müxtəlif vaxtlarda ayrı-ayrı nəşriyyat və dövri mətbuatda çap olunsa da, bu günədək işıq üzü görməyən bir sıra şeirləri, gündəlikləri və xatirələri, müəyyən ictimai əhəmiyyət daşıyan məktubları, bəzi ədəbi qeydləri hələlik diqqətdən kənarda qalmaqdadır.

Bu gün onun ədəbi irsinin tam şəkildə toplanılıb aşkara çıxarılması, yüksək sənətkarlıqla yazılmış və dəyərli ictimai məzmuna malik olan bəzi qeyri-mətbu əsərlərinin çap etdirilməsi və mükəmməl biblioqrafiyasının hazırlanması Naxçıvan ədəbi mühitini öyrənən tədqiqatçıların qarşısında duran vacib məsələlərdən biridir. Çünki bu istiqamətlərdə araşdırmaların aparılması XX əsr Naxçıvan ədəbi mühitinin yaradıcı bir şəxsiyyət kimi yetişdirdiyi H.Razinin ömür yolu və taleyini ilkin mənbələr əsasında izləməyə və yaradıcılığının ayrı-ayrı mərhələlərinin elmi qiymətini müəyyənləşdirməyə imkan verir. Deməli, H.Razinin həyat yolu və yaradıcılığının əsas istiqamətlərinin sistemli və mükəmməl tədqiqinə nail olmaq üçün birinci növbədə onun ədəbi irsinin biblioqrafiyasını hazırlamaqdan başlamaq lazımdır.

İndiyədək H.Razinin əsərlərinin biblioqrafiyasının hazırlanması sahəsində müəyyən işlər görülmüşdür. Bu istiqamətdə ilk addım M.Bağırova məxsusdur. Onun 1975-ci ildə H.Razinin anadan olmasının 50 illiyi münasibətilə buklet şəklində tərtib etdiyi "Oxucuya yaddaş" adlandırdığı biblioqrafik məlumatlar 92 mənbəni əhatə edir. Beş bölmədən ibarət olan "Yaddaş"da

H.Razinin kitabları, şeir və poemaları, tərcümələri, nəsr əsərləri, pyesləri, məqalələri və haqqında yazılanlara aid məlumatlar oxucularda şairin ədəbi irsi və onun dəyərləndirilməsi barəsində müəyyən təsəvvür yarada bilmişdir.

M.Bağırovun tərtibi ilə Azərbaycan SSR Mədəniyyət Nazirliyi və M.F.Axundov adına Azərbaycan Respublika Dövlət kitabxanası tərəfindən 1977-ci ildə Bakıda çap olunan "Naxçıvan yazıçıları" adlı biblioqrafiyada isə 9 səhifə H.Raziyə həsr olunmuşdur. Bu hissədə tərtibçi əvvəlcə H.Razinin həyatı və yaradıcılığı haqqında qısa şəkildə bəhs etmiş, sonra "Kitablar" (9 mənbə), "Dövri mətbuatda və məcmuələrdə dərc olunmuş əsərləri" (56 mənbə), "Tərcümələri" (11 mənbə), "Məqalələri" (18 mənbə) və "Haqqında yazılanlar" (15 mənbə) bölmələrində şairlə bağlı bioqrafik məlumatlar verilmişdir. Tərtibçinin qeyd etdiyi kimi bu "biblioqrafik vəsait mövcud ədəbiyyatı tam şəkildə əhatə etmir, tövsiyə xarakteri daşıyır. Əsas məqsəd isə Azərbaycan Yazıçılar İttifaqının Naxçıvan şöbəsinə daxil olan yazıçıların həyat və yaradıcılığı ilə oxucuları tanış etməkdir".

Naxçıvan Dövlət Universitetinin tələbəsi Ruhiyyə Tağızadənin 1997-ci ildə "Hüseyn Razinin həyat və yaradıcılığının biblioqrafiyası" adlı diplom işi öz elmiliyi və həcminin böyüklüyü ilə daha çox diqqəti cəlb edir. Diplom işinin rəhbəri dosent X.Kərimovun rəyində qeyd olunduğu kimi "R.Tağızadə şairin yarım əsrlik həyat və yaradıcılıq yolunu izləmiş, faktlarla zəngin olan bir biblioqrafik göstəricini ortaya qoymuşdur".

Şairin qızı Firuzə Rzayevanın bizə verdiyi məlumata görə bu biblioqrafiyanın hazırlanmasında atası (H.Razi) R.Tağızadəyə müəyyən məsləhətlər vermişdir.

R.Tağızadənin biblioqrafiyaların tərtib prinsiplərinin müasir tələblərinə tam cavab verən diplom işinin elmi səviyyəsini qənaətbəxş hesab etmək olar. Fikrimizin təsdiqi üçün diplom işinin planını nəzərdən keçirmək kifayətdir:

"Giriş. 1.Həyat və yaradıcılığı haqqında qısa məlumat:

a) həyatı, b) yaradıcılığı; 2. Tərcümeyi-hal göstəriciləri; 3. Kitabları (13 mənbə); 4. Dövri mətbuatda çıxan əsərləri: a) şeirləri (143 mənbə) və poemaları (7 mənbə), b) povestləri (2 mənbə), dramları (3 mənbə) və tərcümələri (11 mənbə), c) ədəbi-tənqidi məqalələri (18 mənbə), d) publisistik məqalələri (120 mənbə), e) başqa dillərə tərcümə olunmuş əsərləri (8 mənbə); 5.Həyat və yaradıcılığı haqqında olan ədəbiyyat (22 mənbə); Haqqında yazan müəlliflərin əlifba göstəricisi; Nəticə; Ədəbiyyat".

Cəmi 347 mənbəni əhatə edən bu biblioqrafiya təəssüf ki, şairlə bağlı bütün mənbələri əhatə etmir. İkinci tərəfdən həmin biblioqrafiya çap olunmadığı üçün onun geniş oxucu kütləsinə heç bir faydası olmamışdır.

"Azərbaycan sovet ədəbiyyatşünaslığı (1920-1975)" və H.Babayevin "Azərbaycan ədəbiyyatının beynəlmiləl əlaqələri (1920-1973)" biblioqrafiyalarında da H.Raziyə yer ayrılmışdır. Birinci biblioqrafiyada şairin səkkiz, ikincisində isə bir əsərinin mənbəyi göstərilmişdir. "Azərbaycan sovet ədəbiyyatşünaslığı"nda şairə aid beş mənbə "H.Razi", üçü isə "H.Rzayev" imzası ilə təqdim olunmuşdur. Əlbəttə, bu vəziyyət oxucunu çaşdırır. Belə çıxır ki, "H.Razi" və "H.Rzayev" ayrı-ayrı müəlliflərdir. Lakin H.Razinin həmin kitabda "H.Rzayev"ə aid edilən yazıların kənarında etdiyi qeydlərdən aydın olur ki, həmin yazılar da ona məxsusdur.

"“Azərbaycan" jurnalının biblioqrafiyası (1923-1972)" və "“Azərbaycan -80. Biblioqrafik göstərici (1923-1983)" kitablarına daxil edilən (əvvəlinciyə 13, sonuncuya 23) 36 mənbə də H.Raziyə aiddir.

H.Razinin əsərlərinin biblioqrafiyasının hazırlanması sahəsində bu günədək görülən işlər təqdirəlayiqdir, lakin qənaətbəxş deyil. Buna görə də şairin həm bədii, həm elmi-publisistik, həm də haqqında mövcud olan yazılı materialları ümumiləşdirən mükəmməl bir biblioqrafiyanın tərtibinə ehtiyac vardır. Məhz həmin

ehtiyacı nəzərə alaraq biz ilk təşəbbüs kimi belə bir biblioqrafiyanı tərtib edib oxucuların ixtiyarına veririk. Bu biblioqrafiyanın hazırlanması heç də asan olmamışdır. Çünki şairin sağlığında və vəfatından sonra müxtəlif mətbuat orqanlarında, kitab və almanaxlarda çap olunan bədii, publisistik və elmi əsərlərinin sayı həddindən çoxdur. Onları əldə etmək üçün tədqiqatçıdan xeyli vaxt, həmçinin möhkəm səbir və hövsələ tələb olunur. Lakin bu işi nisbətən asanlaşdıran cəhət odur ki, şairin özü ilk dəfə müxtəlif illərdə çap olunmuş əsərlərinin siyahılarını hazırlamağa təşəbbüs göstərmiş və həmin istiqamətdə müəyyən işlər görmüşdür. Bu siyahılar onun ən kiçiyi 200, ən böyüyü isə 400-dən çox səhifədən ibarət olan 28 cildlik "Gündəlik"lərinə əlavə olunmuşdur. Hazırda qızı F.Rzayevanın şəxsi arxivində saxlanılan həmin "Gündəlik"lərdə rast gəldiyimiz siyahılar belə başlıqlar altında verilmişdir: "25 aprel 1949-cu ildən 1971-ci ilin sonuna kimi "Şərq qapısı"nda dərc olunan yazılarımın xronologiyası", "Şərq qapısı" qəzetində (*1980-1989-cu illərdə "Sovet Naxçıvanı" adlandırılıb – F.X.*) dərc olunan (*həmin siyahılar ayrı-ayrılıqda 1971-1986-cı illəri əhatə edir – F.X.*), yazılarım". "Son vaxtlarda mərkəzi mətbuatda çıxan yazılarım (1972-1975)", "H.Razinin mərkəzi mətbuatda nəşr olunmuş yazılarının təxmini, natamam siyahısı".

Bu siyahılar şairin "Şərq qapısı"nda, respublika və bəzi xarici mətbuat orqanlarında, müxtəlif kitab və almanaxlarda çap olunan əsərlərini tam şəkildə əhatə etmir. Onun həmin siyahılar haqqında yazdığı aşağıdakı qeydlər fikrimizi təsdiq edir: "Baş məqalələri, kiçik qeydləri nəzərə almıram, kollektiv yazıları hesablamıram. Bundan əlavə arxivimin natamamlığını nəzərə alsaq, demək olar ki, siyahı mənim yazılarımın ümumi həcmini əks etdirmir". Yaxud: "Bunlar müəllifin *(şair özünü nəzərdə tutur – F.X.)* mərkəzi mətbuatdakı yazılarının olsa-olsa dörddə üç hissəsidir... yazıların bir çoxunu seçməyə imkanım olmamışdır".

H.Razinin "Gündəlik"lərdə olan başqa qeydləri də onun

biblioqrafiyasının hazırlanması işinə kömək etmişdir. Həmin qeydlərə əsaslanmaqla "Siyahı"lara daxil edilməmiş bəzi yazıların izinə düşmək mümkün olmuşdur: "17 oktyabr 1967. "Kommunist", "Bakinskiy raboçiy", "Azərbaycan pioneri", "Sovet kəndi" və başqa qəzetlərdə şeirlərim var"; "7 noyabr 1967. "Şərq qapısı" böyük formatda Bakıda buraxılmışdır. Burada "Doğma şəhərim" adlı oçerkim var"; "20 yanvar 1972. Qəzet üçün Nazim Hikmət haqqında məqalə yazdım"; "10 fevral 1973. B.Brext haqqında qəzet üçün məqalə yazdım"; "4 iyun 1974. "Pioner" qəzetində iki şeirim var"; "23 iyun 1981. Nizami İnstitutunda Cənub üçün hazırlanan almanaxa şeirlər göndərdim, Tərcümeyi-hal və şəkil verdim"; "30 aprel 1983. "Kommunist" qəzetində bir oçerkim çıxıb"; "22 iyun 1986. B.Vahabzadənin "Fəryad" tamaşasına baxdım və qəzet üçün rəy yazdım".

H.Razinin biblioqrafiyasının tərtibində köməkçi mənbələrdən biri də şairin əsərləri çap olunmuş müxtəlif qəzet və jurnalların bütöv nüsxələri və onların kəsikləridir. Bu qəzet və jurnal kəsiklərinin bir qismi F.Rzayevanın şəxsi arxivində, digər qismi isə Naxçıvan MRDA-da H.Razinin şəxsi fondunda saxlanılır. Həmin qəzet və jurnal kəsikləri və bütöv nüsxələr şairin əsərlərinin əksəriyyətinin ilk mənbəyi kimi mühüm elmi əhəmiyyətə malikdir. Bu materialların içərisində elələri var ki, H.Razinin biblioqrafiyasını hazırlayarkən, necə deyərlər, dağa-daşa düşmədən onlara istinad edilmişdir. Məsələn, şair "Gündəliy"inin 18 iyun 1980-cı il tarixli səhifəsində yazır: "Lənkərana "Leninçi" qəzetinə redaktorun xahişi ilə bir məqalə yazdım, göndərdim". Nə "Gündəlik"də, nə də başqa bir mənbədə bu məqalənin adı, "Leninçi" qəzetinin hansı nömrəsində dərc olunması haqqında heç bir məlumat yoxdur. Lakin bu barədə Naxçıvan MRDA-da şairin fondunda saxlanılan "Leninçi" qəzetinin kəsiyindən məlumat almaq mümkündür. Həmin qəzetin kəsiyindən aydın olur ki, şairin Lənkəranın təbii gözəlliyinə və ictimai-mədəni həyatına həsr etdiyi "Gözəllik və zəhmət sərgisi"adlı məqaləsi Lənkəranda çıxan "Leninçi"

qəzetinin 26 iyul 1980-cı il tarixli 75-ci nömrəsində dərc olunmuşdur. Belə faktların sayı az deyil.

H.Razinin ədəbi-bədii yaradıcılığa nə vaxt başlaması və ilk yazısının harada çap olunmasının onun biblioqrafiyasının hazırlanmasında mühüm əhəmiyyəti vardır. Bu barədə fikirləri belə ümumiləşdirmək olar:

Murtuz Bağırov: “”Moskva” şeiri ilə yaradıcılığa başlayan H.Razi 30 ilə yaxın yaradıcılıq yolu keçmişdir”.

Ruhiyyə Tağızadə: “1948-ci ildə ilk şeiri olan “Moskva” “Şərq qapısı” qəzetində dərc olunur”.

Nadir İsmayılov: ”H.Razi ədəbi mühitə 1947-ci ildə “Şərq qapısı” qəzetində çap olunan “Moskva” adlı şeirlə qədəm qoymuşdur”.

Teymur Əhmədov: “Ədəbi fəaliyyətə 1947-ci ildə “Şərq qapısı” qəzetində çap olunan “Moskva” adlı şeirindən sonra başlamışdır”.

Göründüyü kimi müəlliflərin hamısı “Moskva” şeirini şairin mətbuatda dərc olunan ilk bədii əsəri hesab etmişlər. Lakin bu məlumatlarda həmin şeirin “Şərq qapısı” qəzetinin hansı tarixli nömrəsində dərc olunması dəqiq şəkildə göstərilməmişdir. Maraqlıdır ki, H.Razinin özü də bu barədə yazarkən dəqiq tarix göstərmir: “Ədəbi yaradıcılığa 1947-ci ildən başlamış, ilk şeirim Moskvanın 800 illik yubileyi münasibəti ilə “Şərq qapısı” qəzetində çıxmışdır”. Qəribə burasıdır ki, nə H.Razinin biblioqrafiyasını tərtib edənlər, nə də şairin özü həmin şeiri heç bir siyahıya salmamışlar. Araşdırmalar nəticəsində müəyyən edə bilmişik ki. “Moskva” şeiri “Şərq qapısı” qəzetinin 7 sentyabr 1947-ci il tarixli 103-cü nömrəsində çap olunmuşdur. Lakin məsələ bununla bitmir. Tədqiqat göstərir ki, H.Razinin “Moskva” şeirindən beş-altı il əvvəl də “Şərq qapısı” qəzetində şeirləri dərc edilmişdir. Bunlardan biri “Partizanın andı”, digəri isə “Şəlalə” adlanır ki, birinci şeir 1941-ci il, ikincisi isə 1942-ci ildə həmin qəzetdə çap olunmuşdir.

Bu şeirlər haqqında başqa müəllifləri demirik, heç H.Razinin özü tərəfindən də məlumat verilməmişdir. Maraqlıdır, görəsən, şair nə üçün bu şeirlər haqqında bir kəlmə də olsa söz açmamışdır? Hər halda bizə elə gəlir ki, o, həmin şeirləri bəlkə də bədii cəhətdən zəif hesab etdiyi üçün xatırlatmağı məqsədəuyğun hesab etməmişdir. Lakin onlar hər hansı səbəbdən olursa olsun yada salınmasa da, H.Razi qələminin məhsulu kimi diqqətdən kənarda qala bilməz. Məhz buna görə də həmin şeirlərin adını və mənbəyini də biblioqrafiyaya daxil edilməsini məqsədəuyğun hesab etmişik.

H.Razinin mətbuatda dərc etdirdiyi yazılarının bir qismi imzasızdır, digər qismi isə "Hüseyn Razi", "H.Razi" və "H.Rzayev" imzaları ilə çap olunmuşdur. İmzasız məqalələrin əksəriyyəti "Şərq qapısı" qəzetində dərc edilən bəzi baş məqalələr və "Bizim təqvim" rubrikası ilə müxtəlif şair və yazıçılara həsr olunan yazılardır. Bu məqalələrə son dərəcədə ehtiyyatla yanaşılmış, onların H.Razi qələminə məxsusluğu tam təsdiq olunduqdan sonra biblioqrafiyaya daxil edilmişdir.

İmzasız yazıların H.Raziyə məxsus olması bir neçə yolla müəyyənləşdirilmişdir:

1.Həmin yazıların bir çoxu şairin özü tərəfindən yazılan məqalələrinin "Siyahısı"na daxil edilmişdir. Şübhəsiz ki, H.Razi başqalarının yazısını öz adına çıxıb "Siyahı"ya salmazdı.

2.Naxçıvan MRDA-da "Şərq qapısı" qəzetinin müxtəlif illərə aid elə komplektləri var ki, vaxtilə onlar qəzetin redaksiyasına məxsus olan xüsusi nüsxələr olmuşdur. İllik nömrələrin hamısını əhatə edən bu nüsxələrdə dərc olunan hər bir yazının üzərində onun müəllifinə çatacaq qonorarın miqdarı yazılmışdır. İmzasız çap edilən bir sıra baş məqalə və digər yazıların üzərində qonorarın bir müəllif kimi qəzetin əməkdaşı H.Raziyə çatacağı qeyd olunmuşdur. Biləliklə, üzərində bu cür qeydlər olan yazıların H.Razinin qələmindən çıxmasına şübhə yeri qalmır.

3.Müxtəlif illərdə "Şərq qapısı" qəzetinin redaksiyası tərə-

findən H.Raziyə verilən rəsmi arayışlarda onun ayrı-ayrı vaxtlarda həmin qəzetdə hansı məqalələrinin dərc olunması təsdiq edilir. Məsələn, 1979-cu ildə qəzetin redaktoru S.Kərimovanın imzası ilə H.Raziyə verilən arayışda onun 1977-1979-cu illərdə "Şərq qapısı"nda dərc olunan oçerk və zarisovkalarının siyahısı verilmişdir ki, bu yazıların da bir çoxu qəzetdə imzasız çıxmışdır. Rəsmi sənəd olan həmin arayış isə tam təsdiq edir ki, bu yazılar həqiqətən H.Raziyə məxsusdur.

4.H.Razinin Naxçıvan MRDA-da qorunan şəxsi fondunda və qızı F.Rzayevanın arxivində şairin vaxtilə imzasız yazıları dərc olunan müxtəlif qəzet kəsikləri vardır. Bunların bəzilərinin üzərində və sonunda redaktorun, həmçinin H.Razinin özünün adını və imzasını qeyd etməsindən aydın olur ki, həmin yazılar ona məxsusdur.

5.Şairin "Gündəliy"indəki bəzi qeydlərindən də onun imzasız dərc etdirdiyi yazıları müəyyənləşdirmək olur. Məsələn: "31 dekabr 1966. Qəzetin yeni il nömrəsi üçün "Şaxta babanın teleqramları" başlığı altında şarjları hazırlayıb verirəm".

Bu yazı həqiqətən də "Şərq qapısı"nın 1 yanvar 1966-cı il tarixli nömrəsində "Şaxta babanın sərgisi" başlığı ilə imzasız dərc olunmuşdur. Yaxud: "7 aprel 1973. Qəzet üçün "İdeya mətinliyi" adlı baş məqalə yazdım".

Həmin baş məqalə "Şərq qapısı"nın 11 aprel 1973-cü il tarixli nömrəsində imzasız dərc edilmişdir. "Gündəlik"də rast gəldiyimiz belə qeydlər adı çəkilən yazıların H.Raziyə məxsusluğunu təsdiqləyir.

H.Razinin haradasa çap edilməsi haqqında məlumatımız olan elə şeir və publisistik məqalələri də vardır ki, onların izinə düşsək də, dərc olunduğu mənbələri dəqiq şəkildə müəyyənləşdirə bilməmişik. Sayca çox az olan belə yazılar təbii ki, biblioqrafiyadan kənarda qalmışdır. Lakin ümid edirik ki, bu istiqamətdə aparılacaq araşdırmalar gələcəkdə biblioqrafiyanın yeni nəşrinin daha kamil olacağına imkan verəcəkdir.

H.Razinin biblioqrafiyasını hazırlayarkən onun həm öz tərcümələri, həm də başqa dillərə tərcümə olunan əsərlərini də diqqət mərkəzində saxlamışıq. Hər iki istiqamətə aid tərcümələrin bir qismi müxtəlif qəzet, jurnal, antologiya, almanax və kitablarda çap olunmuş, müəyyən hissəsi Naxçıvan radiosu və televiziyasında müvafiq verilişlərdə səsləndirilmiş, digər qismi isə hələlik qeyri-mətbu olaraq şairin şəxsi arxivində saxlanılmaqdadır. H.Razi 1985-ci ildə rus dilinə tərcümə olunmuş əsərlərini kitab şəklində çapa hazırlasa da, onun nəşrinə nail ola bilməmişdir. “Ana sevgisi” adlandırdığı həmin kitaba daxil etdiyi şeirlərin bir qismi şairin özü tərəfindən rus dilinə tərcümə olunmuşdur.

H.Razinin tərcümələri müxtəlif xalqların ədəbiyyatını əhatə edir.

Türk ədəbiyyatından: Nazim Hikmət. “Bəyazit meydanında meyid”; Özbək ədəbiyyatından: Rəhmətulla Uyğun. “Məhəbbət”; Həmid Alimcan. “Azərbaycan qızı”; Əmir Umari. “Fərqanə”. Bolqar ədəbiyyatından: Minko Lalayev. “Sovet qəhrəmanları”; Dora Lalayeva. “Kommunistlər və komsomolçular”; Dağıstan ədəbiyyatından: Rəsul Həmzətov. Səkkizliklər, “Ana”, “Doğma yerlərdə”, “Sənin gözlərin”; Abxaz ədəbiyyatından: Ş.Acincal. “Aydoğan gecədə” (hekayə); Ərəb ədəbiyyatından: Mahmud Dərviş. “Vətən”, “Bizim cavabımız”, “İstintaq”; Nepal ədəbiyyatından: Ç.Xridayya. “Varlı olmaq istəmirəm”; Fransız ədəbiyyatından: V.Hüqo. “Volterin vəfatının 100 illiyi münasibətilə nitq”; Rus ədəbiyyatından: S.Mixalkov. “Peyvənd”, “Yatmaq olmaz”, “Otuz altı və beş”, “Ərköyün”, “Bəs sizdə nə var”, “İnsan ol”; M.İsakovski. “Sovetlər ölkəsinə məktub”, “Köçəri quşlar”, “Lenin məqbərəsi önündə”; B.Pasternak. “Adsız şeir”; A.Barto. “Məktəbə”, “Birinci sinifdə oxuyan qız”, “Sinfə gedən yolda”, “Birinci dərs”, “Bağçada dərs”; K.Çukovski. “Telefon”; L.Martınov. “Qalib xalq”; O.Şestinski. “Bir ovuc torpaq”, “Mənim oktyabrım”, “Monoloq”, “Torpağa bağban ol” (poema); S.Vasilyev. “Gəncliyin göyərçini” (bir hissə), “Rusiya haqqında nəğmələr” (bir hissə); S.Smirnov. “İtburnu çiçəkləri”, “Yer sonatası”, “Yol”; S.Şpaçev. “Pəncərə önündəyəm” və sair.

H.Razi dünya yazıçıları, filosofları, siyasətçıləri, həmçinin görkəmli dövlət xadimlərindən Ezop, Aristotel, Demokrit, Sokrat, Demosfon, Epikür, R.Taqor, Pifaqor, İ.Kant, S.Şirazi, Hafiz Şirazi, Napoleon, J.Russo, Bualo, P.Beranje, V.Höte, O.Balzak, F.Şiller, V.Hüqo, V.Şekspir, D.Didro, Y.Sezar, C.Svift, I Pyotr, M.Tven, Paskal, F.Dostoyevski, F.Volter, C.Vaşinqton, F.Şotobrian, J.Sand M.Lomonosov, İ.Nyuton, L.Tolstoy, A.Düma, E.Heminquey, A.Bakıxanov, M.Füzulinin hikmətli sözlərini və hind aforizmlərini də Azərbaycan dilinə tərcümə etmişdir. Bunların bir qismi mətbuatda çap olunmuşdur.

H.Razi qeyri-rus xalqların ədəbiyyatından çevirdiyi əsərləri orijinalından yox, rus dilindən tərcümə etmişdir. Bu əsərlərin ilk mənbəyi həmin şair və yazıçıların rus dilində çap olunan kitabları, həmçinin "Literaturnaya qazeta", "Nedelya", "İnostrannaya literatura", "Krokodil" kimi qəzet və jurnallardır.

H.Razinin əsərlərini müxtəlif dillərə çevirən tərcüməçilər isə bunlardır:

Türk dilinə: Seyfulla Altaylı. "Sinem kabarır benim";

Fransız dilinə: Şamil Zaman. "Mayak", "Naməlum əsgərin qəbri", "Oğuma", "Fəhlə heykəli", "Söz var ki", "Tələsirik", "Çağırmaq istəyirəm";

Rus dilinə: A.Petrov. "Vətən", "Dostluğun rəmzi", "Səidə", "Ana", "Həyat", "Fuçikin məzarı önündə"; Q.Kommennoy. "Danışır Moskva"; V.Konstantinova. "Ələngizdə", "Tənha olanda"; B.Şteyn. "Döyüşdən döyüşə"; A.Qriç. "Əvvəldən axıradək", "Pambıqçı qız"; A.Xaldeyev. "Vətən", "Söz", "Fəhlə heykəli", "Naxçıvan"; M.Petrakov. "Mahnı", "Həyat"; S.Solojenko. "Yollar"; S.Məmmədzadə. "Əks qütblər".

H.Razinin əsərlərinin müxtəlif dillərə tərcümələrinin və şairin özünün Azərbaycan dilinə çevirdiyi əsərlərin çap olunduğu mənbələr də rəngarəngliyi ilə diqqəti cəlb edir. Buraya "İzvestiya" (Moskva) "Za sovetskuyu rodinu" (Moskva), "Taqanroqskaya pravda" (Taqanroq), "Sovetskaya Kultura" (Moskva) "Na straje"

(Bakı), "Bakinskiy raboçiy" (Bakı), "Vışka" (Bakı), "Molodyoj Azerbaydjana" (Bakı), "Sovetskaya Naxiçevan" (Naxçıvan), "Şərq qapısı" (Naxçıvan) kimi qəzetlər, "Literaturnıy Azerbaydjan" (Bakı), "Ulduz" (Bakı),"Dar druqa" (Bakı, 1964), "Oqni nad Araksom" (Bakı: Gənclik, 1974) , Zülmette vatan duykuları (Ankara; Diyanat vakfı yayınları, 1991), Azərbaycan poeziyası antologiyası (Bakı: Nurlan, 2011) "Dostluq körpüsü" (Bakı: 1972) kimi jurnal, almanax, antologiya və kitablar daxildir.

H.Razinin tərcümə əsərlərinin mənbələrinin müəyyənləşdirilməsinin biblioqrafiyanın hazırlanması üçün əhəmiyyəti olmuşdur.

H.Razinin ədəbi-ictimai fəaliyyəti və yaradıcılığı həm sağlığında, həm də vəfatından sonra qiymətləndirilmişdir. Əldə etdiyimiz məlumatlar göstərir ki, H.Razinin fəaliyyətinin ümumiyyətlə dəyərləndirilməsi onun İkinci Dünya müharibəsində Pribaltika cəbhəsindəki 99-cu hava alayında xidmət illərinə təsadüf edir. Sonralar isə əksər təltifləri və dəyərləndirilmələri ədəbi-ictimai fəaliyyətinə və bədii-publisistik yaradıcılığına aiddir. Bu məsələlərlə bağlı əldə etdiyimiz faktları və məlumatllar biblioqrafiyanın "Hüseyn Razinin həyat və yaradıcılığının əsas tarixləri" bölməsində ümumiləşdirilmişdir.

H.Razinin həyatı, şəxsiyyəti, yaradıcılıq yolu və sənətkarlıq xüsusiyyətlərinə aid xeyli yazılı mənbələr vardır. Onları belə qruplaşdırmaq olar:

1. Kitabları və pyeslərinin tamaşası haqqında rəylər.
2. Qələm dostları və pərəstişkarlarının xatirə və təəssüratları.
3. Əsərlərinin təhlilinə həsr olunmuş məqalə və oçerklər.
4. Ədəbi irsinin bütövlükdə və sistemli şəkildə tədqiqinə dair araşdırmalar.

Bu materiallarda şairin şəxsiyyəti və yaradıcılığının əsas istiqamətləri haqqında bir sıra maraqlı və orijinal mülahizələr irəli sürülmüşdür.

Keçən əsrin 50-ci illərindən etibarən meydana çıxan bu ya-

zıların müəlliflərinin tərkibinə nəzər salmaqla şairin əsərlərinin ədəbi ictimaiyyətin müxtəlif təbəqələrinin diqqət mərkəzində olması haqqında tam təsəvvür əldə etmək olar:

**a) şair və yazıçılar:** Mirzə İbrahimov, Xəlil Rza, Mehdi Hüseyn, Cavad Heyət, Adil Babayev, Əli Vəliyev, Hüseyn İbrahimov, Əliağa Kürçaylı, Müzəffər Nəsirli, Məşkur Əkbər, Əliyar Yusifli, Kəmalə Ağayeva, Şəkər Aslan, Vaqif Məmmədov, Tofiq Mahmud, Mustafa İsgəndərzadə, Rüstəm Behrudi və başqaları.

**b) jurnalist və oxucular:** Əli İldırımoğlu, Şamil Zamanov, İsa Məmmədov, Əhməd Mahmudov, Sənubər Kərimova, Akif Axundov, Əli Rzayev, Rafiq Oday, Sərvaz Hüseynoğlu, Sadıq Xanəliyev, Zakir Rzayev, Muxtar Qasımzadə, Heydər Oğuz, Aydın Məmmədoğlu və başqaları.

**c) ədəbiyyatşünas və tənqidçilər: akademiklər -** Məmməd Arif, Bəkir Nəbiyev, İsa Həbibbəyli; **elmlər doktorları -** Yavuz Axundlu, Abbas Hacıyev, Teymur Əhmədov, Vaqif Arzumanov, Sevindik Vəliyev, Fərman Xəlilov; **fəlsəfə doktorları** – İzzət Maqsudov, Nadir İsmayılov, Arif Əliyev, Xanəli Kərimli, Seyid Surə və başqaları.

Adı çəkilən müəlliflərin məqalələri və tədqiqat işlərinin hər biri diqqətlə araşdırılmış və biblioqrafiyanın "Həyat və yaradıcılığı haqqında ədəbiyyat" bölməsinə daxil edilmişdir.

H.Raziyə həsr olunan yazılar müxtəlif mətbuat orqanları, almanax və kitablarda çap olunmuşdur. Azərbaycan, türk, fars, rus və fransız dillərində olan həmin yazılar da biblioqrafiyada öz əksini tapmışdır.

Bu günədək H.Razinin ədəbi irsi və şairlə bağlı bir sıra sənəd və materiallar aşağıdakı beş əsas mənbədə qorunub saxlanılmışdır:

1. Əsasən Azərbaycanda, qismən isə Azərbaycandan kənarda çap olunan qəzet, jurnal, məcmuə kitab və almanaxlar.

2. S.Mümtaz adına Azərbaycan Dövlət Ədəbiyyat və İncəsənət arxivi, H.Razinin şəxsi fondu № 298, siy 1.

3. Naxçıvan MR Dövlət Arxivi, H.Razinin şəxsi fondu

№ 700, siy.1,2,3.

4. C.Məmmədquluzadə adına Naxçıvan M.R Ədəbiyyat Muzeyinin fondu. H.Raziyə aid materiallar. Qovluq № 86.

5. Şairin qızı Firuzə Rzayeva tərəfindən saxlanılan H.Razinin şəxsi arxivi. Naxçıvan şəhəri.

Biblioqrafiya hazırlanarkən etibarlılığı şübhə doğurmayan bu mənbələrə istinad olunmuşdur. H.Razinin şəxsi arxivi haqqında müəyyən təsəvvür yaratmaq üçün isə S.Mümtaz adına Azərbaycan Respublikası Dövlət Ədəbiyyat və İncəsənət Arxivində və Naxçıvan Muxtar Respublika Dövlət Arxivində ona məxsus olan 298 və 700 nömrəli fondlara daxil edilən materialların tam siyahısı biblioqrafiyaya əlavə edilmişdir.

H.Raziyə məxsus olan sənədlər içərisində onun Azərbaycanın tanınmış elm və mədəniyyət xadimlərindən, həmçinin bəzi oxucularından aldığı məktublar da diqqəti cəlb edir. Alimlərdən Ə.Şərif, K.Talıbzadə, T.Əhmədov, xalq yazıçılarından M.İbrahimov, M.Hüseyn, İ.Əfəndiyev, xalq şairlərindən X.Rza, B.Vahabzadə, M.Araz, B.Azəroğlu və başqaları tərəfindən şairə ünvanlanmış sayı 50-yə çatan həmin məktubların bir qisminin biblioqrafiyaya daxil edilməsi məsləhət bilinmişdir.

Tərtib etdiyimiz bu biblioqrafiyanın H.Razinin həyat və yaradıcılıq yolunu bütün parametrləri ilə öyrənmək istiqamətində oxucular və tədqiqatçılar üçün faydalı bir mənbə olacağına inanırıq.

Biblioqrafiyanı çapa hazırlayarkən bizə köməyini əsirgəməyən H.Razinin həyat yoldaşı mərhum Xədicə xanım Rzayevanın, oğlu tarix üzrə fəlsəfə doktoru, dosent mərhum Zakir Rzayevin xatirəsini yad etməklə yanaşı, Naxçıvan MR Arxiv İdarəsinin rəisi, tarix üzrə elmlər doktoru Fəxrəddin Cəfərova, M.S.Ordubadi adına Naxçıvan Respublika Kitabxanasının Biblioqrafiya şöbəsinin müdiri Südabə Süleymanovaya, şairin oğlu jurnalist Əli Rzayevə, qızları Firuzə və Gülzar Rzayevalara dərin minnətdarlığımızı bildiririk.

**Fərman Xəlilov,**
***filologiya üzrə elmlər doktoru***

## HÜSEYN MƏMMƏD oğlu RZAYEVİN (RAZİNİN) HƏYAT VƏ YARADICILIĞININ ƏSAS TARİXLƏRİ

Hüseyn Məmməd oğlu Rzayev (Razi) 1924-cü il oktyabrın 17-də Naxçıvan Respublikası Ordubad rayonunun Dəstə kəndində anadan olmuşdur.

**1931-1937-ci illər** - Dəstə kənd yeddiillik məktəbinin şagirdi.

**1938-1941-ci illər** - Ordubad Pedaqoji Texnikumunun tələbəsi.

**1941-ci il, 10 oktyabr** - "Partizanın andı" adlı ilk şeiri "Şərq qapısı" qəzetində dərc edilmişdir.

**1941-1942-ci illər** -Culfa rayonunun Ərəzin kənd məktəbində müəllim.

**1942-1945-ci illər** - SSRİ Silahlı Qüvvələri sıralarında İkinci Dünya müharibəsində Oryol ətrafındakı döyüşlərdə yaralanmış, müalicədən sonra Rribaltika cəbhəsinə göndərilmiş və müharibənin sonunadək burada 99-cu hava alayında xidmət etmişdir.

**1944-1945-ci illər** - "Döyüş igidliyinə görə" və "Döyüş xidmətlərinə görə" medalları ilə təltif edilmişdir.

**1946-cı il** - Ordubad rayonundakı 2 nömrəli səkkzillik məktəbin müəllimi.

**1946-1949-cu illər** - Ordubad rayon Dəstə kənd klubunun müdiri.

**1947-ci il** - "Şərq qapısı" qezeti ilə əməkdaşlığa başlamışdır.

**1949-1952-ci illər** - "Şərq qapısı" qəzetində şöbə müdiri.

**1952-1955-ci illər** - Naxçıvan MSSR Nazirlər Soveti yanında Radio Verilişləri Komitəsində redaktor.

**1953-1959-cu illər** - Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsinin tələbəsi (qiyabi).

**1955-1959-cu illər** - "Şərq qapısı" qəzetində ədəbi işçi.

**1958-cu il** - "Kəndimizin səhəri" adlı ilk kitabı çap olunmuşdur.

- SSRİ Yazıçılar İttifaqına üzv qəbul edilmişdir.

- SSRİ Yazıçılar İttifaqı Ədəbiyyat Fonduna üzv qəbul edilmişdir.

**1959-cu il** - SSRİ Yazıçılar İttifaqına üzv qəbul edilmişdir.

**1959-1960-cı illər** - Azərbaycan Teleqraf Agentliyinin Naxçıvan müxbiri.

**1961-1962-ci illər** - M.S.Ordubadi adına Naxçıvan Respublika Kitabxanasında şöbə müdiri.

**1962-ci il** - Azərbaycan Yazıçılar İttifaqı, Azərbaycan LKGİ MK və Azərbaycan Respublikası Xalq Yaradıcılıq Evinin gənclər üçün yazılan pyeslər müsabiqəsində "Tarla gözəli" pyesi mükafata layiq görülmüşdür.

**1962-1989-cu illər** - "Şərq qapısı" qəzetində ədəbiyyat şöbəsinin müdiri.

**1964-cü il** - Azərbaycan Yazıçılar İttifaqı və Azərbaycan SSR İctimai Asayişi Mühafizə Nazirliyinin sovet milisinə həsr olunmuş əsərlərin müsabiqəsində "Həyəcanlı gecə" povestinə görə həvəsləndirici mükafat almışdır.

**1964-cü il, 29 iyun** - Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Fəxri Fərmanı ilə təltif edilmişdir.

**1965-ci il, 7 may -** "1941-1945-ci illərdə BöyükVətən müharibəsində qələbənin 25 illiyi" yubiley medealı ilə təltif edilmişdir.

**1967-ci il, 26 dekabr** -"SSRİ Silahlı Qüvvələrinin 50 illiyi" yubiley medalı ilə təltif edilmişdir.

**1968-ci il, 5 may** - Naxçıvan MSSR Ali Soveti Rəyasət Heyətinin Fəxri Fərmanı ilə təltif edilmişdir.

**1970-ci il, 11 aprel - "**V.İ.Lenin yubiley medalı" ilə təltif edilmişdir.

**1970-ci il, 29 may** - Bakı Şəhər Zəhmətkeş Deputatları Soveti tərəfindən Fəxri Fərmanla təltif edilmişdir.

**1972-ci il, 13 yanvar** - Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Fəxri Fərmanı ilə təltif edilmişdir.

**1970-1975-ci illər -** Professor A.Zamanovun elmi rəhbərliyi ilə "İrəvanda Azərbaycan ədəbi mühiti" mövzusunda namizədlik dissertasiyası üzərində işləmişdir

**1975-ci il, 15 fevral** - Anadan olmasının 50 illiyi münasibətilə C.Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında təntənəli yubiley gecəsi keçirilmişdir.

**1975-ci il, 25 aprel -** "1941-1945-ci illərdə Böyük Vətən müharibəsində qələbənin 30 illiyi" yubiley medalı ilə təltif edilmişdir.

**1975-ci il, 17 yanvar –** Naxçıvan MSSR Ali Soveti Rəyasət Heyətinin Fəxri Fərmanı ilə təltif edilmişdir.

**1978-ci il, 28 yanvar** - "SSRİ Silahlı Qüvvələrinin 60 illiyi" yubiley medalı ilə təltif edilmişdir.

**1981-ci il, 25 dekabr** - Naxçıvan MSSR əməkdar incəsənət xadimi fəxri adına layiq görülmüşdür.

**1984-cü il, 11 mart** - SSRİ Ali Soveti Rəyasət Heyətinin fərmanı ilə "II dərəcəli Vətən müharibəsi" ordeni ilə təltif edilmişdir.

**1984-cü il, 26 iyul** - SSRİ Ali Soveti Rəyasət Heyətinin fərmanı ilə "Əmək veteranı" medalı ilə təltif edilmişdir.

**1984-cü il, 15 noyabr** - Azərbaycan SSR-nin əməkdar incəsənət xadimi fəxri adına layiq görülmüşdür.

**1984-cü il, 20 dekabr** - Naxçıvan MR Əmək Sarayında anadan olmasının 60 illiyinə həsr olunan yubiley gecəsi keçirilmişdir.

**1985-ci il, 12 aprel** - "1941-1945-ci illərdə Böyük Vətən müharibəsində qələbənin 40 illiyi" yubiley medalı ilə təltif edilmişdir.

**1988-ci il, 28 yanvar -** "SSRİ Silahlı Qüvvələrinin 70 illiyi" yubiley medalı ilə təltif edilmişdir.

**1989-1998-ci illər** - Təqaüdçü. Naxçıvanın ictimai-siyasi

və mədəni həyatında fəal iştirak etmiş, dövri mətbuatda aktual problemlərə həsr olunan məqalələri dərc edilmişdir.

**1996-cı il**, **noyabr** - Kərbəla ziyarətində olmuşdur.

**1998-ci il, 27 fevral** - Naxçıvan şəhərində vəfat etmiş, vəsiyyətinə görə dünyaya göz açdığı Dəstə kəndində dəfn olunmuşdur.

## DƏYƏRLƏNDİRMƏ

### H.Razi müasirlərinin gözü və sözü ilə

*Hüseyn Razi bilavasitə və təbii bir əda ilə hissiyyatını ifadə edən şairdir... Onun sazı saxta havalar çalmır. Şeirlərindəki şirinlik və inandırıcılıq da bununla bağlıdır.*

Mirzə İbrahimov
*xalq yazıçısı*

***

*Hüseyn Razi yaradıcılığının mühüm keyfiyyətlərindən biri onun heç bir məhdudluq tanımaması, geniş və zəngin poetik xəritəyə malik olmasıdır.*

Xəlil Rza Ulutürk
*xalq şairi*

***

*Hüseyn Razi Araz təbli şair dostumdur.*

*Ey dostum Razi,*
*Gətir şeirimizə,*
*Gətir Arazı.*

Məmməd Araz
*xalq şairi*

***

*Hüseyn Razinin coşğun ilhamının məhsulu olan "Azərbaycan gözəliyəm" şeiri Naxçıvanın poetik təqdimatının ifadəsi olan nümunələrin ideya-estetik və bədii emosional keyfiyyətlərini müvəffəqiyyətlə yekunlaşdırır.*

İsa Həbibbəyli
*akademik*

***

*Həyatda baş verən hadisələrin, ayrı-ayrı fərdlərin deyil, bütün xalqın, vətənin taleyi ilə bağlamaq bacarığı, hər şeyə vərtən və xalq prizmasından baxmaq cəhdi Hüseyn Razi şeirləri üçün xarakterikdir.*

Əliağa Kürçaylı
*şair*

***

*Hüseyn Razi zəhmətkeş şairdir. O, daim ədəbi axtarışdadır. Oxucusuna təzə söz demək, onu düşünməyə vadar etmək şairin əsas ədəbi qayəsidir. Onun poeziyası daxili enerjiyə, ilham yanğısına malikdir.*

Hüseyn İbrahimov
*xalq yazıçısı*

***

*Hüseyn Razi öz səsi, özünəməxsus yaradıcılıq üslubu ilə ədəbiyyata gəlmişdir... Onun şeirləri gərgin yaradıcı əməyin məhsuludur.*

İzzət Maqsudov
*filologiya üzrə fəlsəfə doktoru*

***

*Hüseyn Razi yüksək istedad və ilhamla yazılmış əsərləri ilə ədəbiyyatımızda silinməz izlər qoymuşdur. Onun əsərlərindəki dərin vətənpərvərlik qayəsi, mövqe aydınlığı, həqiqətpərəstlik, poetik bütövlük, sənətkarlıq kamilliyi, bədii-estetik təsir gücü cismani həyatının davamı kimi mənəvi ömrünün vüsətini şərtləndirir.*

Hüseyn Həşimli
*fililologiya üzrə elmlər doktoru,*
*əməkdar elm xadimi*

***

*Damarlarından əsl söz mücahidlərinin al qanı axan poeziyamızın ən safqanlı donorlarından olan Hüseyn Razinin özü ilə də, sözü ilə də şeirimizin bəxti gətirmişdir. Onun bütün misraları qəlbində çağlayan kişilik, cəsarət bulağından su içmişdi. Elə buna görə də Hüseyn Razinin hər misrasından bütün yaradıcılığı, yaradıcılığından isə şeirimizin hədsiz-hüdudsuz imkanları əzəməti ilə görünür.*

Rafiq Babayev
*yazıçı*

*Hüseyn Razi haqqında söhbət düşəndə ən əvvəl xəyalıma Naxçıvan torpağı gəlir, çünki onu bu torpaqdan ayrı təsəvvür etmək qeyri-mümkündür.*

Tofiq Mahmud
*şair*

***

*Hüseyn Razinin hikmətamiz məzmunlu və dərin məna tutumuna malik olan şeirləri az deyil. Belə şeirlər çoxəsrlik milli poeziyamızın qızıl fonduna daxil edilməyə layiqdir.*

Fərman Xəlilov
*filologiya üzrə elmlər doktoru*

***

*Hüseyn Razi ədəbiyyatımıza qarşı çox sayğılı və qayğılı idi. Poeziyamızın, bütövlükdə ədəbiyyatımızın namusunu, qeyrətini çəkən kişilərdən idi. Çiy yazıları mətbuat səhifələrinə çıxarmaz, istedadları boğulmağa qoymazdı.*

Rafiq Oday
*şair-jurnalist*

***

*Bu gün şeirimizdə Hüseyn Razi kəsərinin, Hüseyn Razi ədalətinin, Hüseyn Razi tələbkekliyinin yerini hiss edirik. Yaxşı ki, Hüseyn Razi kimilər olub dünyada və yaxşı ki, bu gün də yaddaşlarda yaşayır onlar.*

Vaqif Məmmədov
*şair*

***

*Hüseyn Razi öz ideallarına çox sadiq idi. Fikrində qətiyyətli, əqidəsində dönməz idi, dərin biliyə, geniş dünyagörüşünə malik idi. Riyakarlığı, yaltaqlığı sevməzdi... Qürurlu idi, ləyaqətini qoruyan idi.*

İnqilab Orxan
*şair*

***

*Hüseyn Razi poetik təbiəti etibarı ilə universal şair idi və bu baxımdan o, eyni mövzuya yaradıcılığının müxtəlif dövrlərində eyni cür yanaşmamışdır.*

Nadir İsmayılov
*filologiya üzrə fəlsəfə doktoru*

***

*Atamız məşhur Azərbaycan şairi Abbas Səhhətin "Vətən" şeirindəki "Vətəni sevməyən insan olmaz, Olsa, ol şəxsdə vicdan olmaz" misralarında kiçik dəyişiklik edərək belə də deyərdi:*

***Ananı*** *sevməyən insan olmaz,*
*Olsa, ol şəxsdə vicdan olmaz!*

Firuzə və Gülzar Rzayevalar
*şairin qızları*

***

*Babam bəşəri düşüncə sahibi idi. Onun bu keyfiyyəti insanlara sevgisindən qaynaqlanırdı. Məncə, əsl şair və vətəndaş belə olmalıdır.*

Yunis Xəlilov
*şairin nəvəsi.*

**Yavuz Axundlu**
*filologiya üzrə elmlər doktoru, professor*

## HÜSEYN RAZİNİN SƏNƏT DÜNYASI

Hüseyn Razi XX əsrin II yarısında Naxçıvan ədəbi mühitində yetişən, özünəməxsus duyum və deyim tərzi ilə Azərbaycan poeziyasında seçilən görkəmli şair idi.

Mən hələ Bakıda təhsil aldığım illərdə onun şeirləri ilə mətbuatdan tanış idim. Lakin ilk canlı ünsiyyətimiz 1952-ci ildən başlamışdır. Mən universiteti yenicə bitirib, Naxçıvanda orta məktəbdə müəllim işləyirdim. Sentyabr ayı idi. Səməd Vurğun Naxçıvana gəlmişdi. O illərdə qüdrətli şair haqqında yuxarıların göstərişi ilə mətbuatda bir neçə tənqidi məqalə çıxsa da, xalq onu sevgi və ehtiramla qarşıladı. Şəhərin ən böyük tamaşa salonunda onunla görüş keçirildi. S.Vurğun şeirinin pərəstişkarlarının çoxu yer olmadığından ayaq üstə idi. Bir neçə çıxış oldu. Mən də çıxış etdim. H.Razi isə şeir oxudu. Biz S.Vurğunun şeirə diqqətlə qulaq asdığını və gənc şairin şeirini bəyəndiyini hiss edirdik. Həmin görüşdə mən H.Razi ilə şəxsən tanış oldum. Bu tanışlığımız getdikcə möhkəmləndi və dostluğa çevrildi. 50 ilə yaxın müddətdə onunla şəxsi münasibətimiz oldu. Tez-tez görüşər, əsasən şairdən, sənətdən, ədəbiyyatdan danışardıq. Aramızda incə zarafat da var idi. Sonralar isə siyasi mövzuda da söhbətlər edərdik. Mən H.Razini ilk növbədə geniş mütaliə sahibi kimi tanıdım. Azərbaycan və rus dillərində nəşr olunmuş az əsər olardı ki, Hüseyn onu oxumasın. Moskva və Bakı mətbuatını müntəzəm izlərdi. Söhbətlərimizdə onun maraq dairəsinin əhatəliliyi aydın hiss olunurdu. Hüseyn Razi fikirlərini müsahibinə inandırmağı bacarırdı. Gözəl nitq qabiliyyəti olduğundan şeirlərini yüksək pafosla oxuyar və rəğbətlə qarşılanardı. Həm də güclü yaddaşa malik olduğundan bütün şeirlərini əzbər deyərdi.

O illərdə Naxçıvanda ədəbi mühit olduqca canlı idi. Gənc şair və yazıçılar Hüseyn Razi, Əlyar Yusifli, Əhməd Mahmud,

Kəmalə Ağayeva, Həsən Fətullayev, Novruz Əliyev və başqaları ilk qələm təcrübələrini yazır, çap etdirir, hətta dram janrına müraciət edir, onların tamaşaya qoyulmasına nail olurdular. Naxçıvanda tez-tez ədəbi-bədii gecələr keçirilir, müxtəlif yubileylərlə bağlı görüşlər olurdu.

Füzuli, Nəsimi, Vaqif, M.F.Axundzadə, C.Məmmədquluzadə, həmçinin Əziz Şərif, S.Vurğun, R.Rza, M.İbrahimov, S.Rəhimov, Ə.Vəliyev və başqa görkəmli müasir ədiblərin yubileyləri Naxçıvan yazıçılarının yaradıcılığına bir növ baxış idi. Onlar öz yeni əsərləri ilə oxucularına sanki hesabat verirdilər. Bu görüşlərdə H.Razinin şeirləri həmişə diqqət mərkəzində olardı.

1962-ci ildə böyük şair M.Ə.Sabirin anadan olmasının 100 illiyi qeyd edilirdi. Naxçıvan MR-nin ayrı-ayrı rayonlarında, tədris müəssisələrində Sabir haqqında bədii gecələr keçirilirdi. Onlardan birinin də Ordubadın Nüsnüs kəndində keçirilməsi nəzərdə tutulmuşdu. Vilayət Partiya Komitəsinin şöbə müdiri, yazıçı Hüseyn İbrahimov, Naxçıvan Yazıçılar filialının sədri Müzəffər Nəsirli, Hüseyn Razi və mən bir maşında Ordubada getdik. Raykomun I katibi (o zaman istehsalat partiya komitəsi deyirdilər) mərhum Tofiq Vəkilov bizi qəbul etdi. Nüsnüs kəndində gözəl bir tədbir keçirildi. Mən məruzə etdim. Şairlər şeir oxudu.

H.Razi bir qayda olaraq hər il keçmiş SSRİ-nin məşhur kurortlarına gedər və yazıçıların yaradıcılıq evlərində istirahət edər və yeni şeirlər yazardı. 1965-ci ildə Moskva ətrafından mənə göndərdiyi 17 sentyabr tarixli məktubuna «Alim dostuma» adlı bir şeir də əlavə etmişdi. «Salam Yavuz, oxu bu şeiri, sonra mühafizə et». Şeir belədir.

Deyirəm darıxma, döz çətinliyə,
Dözürəm dözümlə, təmkinlə inan.
Ancaq bilirəm ki, təvəkkül deyə,
Atam da, babam da köçüb dünyadan.
Cənnət vəd etdilər yazıq babama
İnamla hər zülmə tablaşdı, fəqət

Qabarlı əlindən qan dama-dama
Dedi: Haqq qapısı açılar əlbət.
Yüz oda düşsə də, babam ürəkdən
Sidq ilə inandı ulu göylərə.
Nə qədər əcayib bir varlığam mən,
Göylərə səcdəm yox, inamım yerə.
Səmti məlum deyil getdiyim yolun,
Heç kəsə, heç kimə inanmıram mən.
Açılır başıma nə qədər oyun,
Qəti ayılmıram mürgüləməkdən.
Qanımı, tərimi içirlər hər gün,
Nuşi-can deyirəm ədəblə yenə.
Elə bil içində bu təlatümün,
Nə üzmək gərəkdir, nə qayıq mənə.
Başçım, peyğəmbərim dar düşüncəli,
Nə öz vicdanım var, nə də Allahım.
İllər gəlib keçir günlü, gecəli,
Heç kəsə, heç kimə yetişmir ahım.
Nə ağıl, nə zəka gərəyim deyil,
Guya düşünən var mənim yerimə.
Şişlə dağ çəkilir sinəmə mil-mil,
Baxanda bəhrəsiz əməllərimə.
Yanıram ruhuma atəş ələnir,
Sınanda qanadı hər düşüncəmin.
Bu vaxt qulağıma bir səda gəlir,
Yanma, əvəzinə yanan var sənin.
Xeyr, aldatmayın, uşaq deyiləm,
Atəşə, alova düşməz yarasa.
Özüm yanmalıyam mənimdir bu qəm,
«Gözdən yaş çıxarmı ürək yanmasa?»
Mən yanar kürədə külçələr kimi,
Qaynayıb qəlibə çəkiləm gərək.
Vərəm nişanəsi soyuq tər kimi,
Axıb damla-damla töküləm gərək.

Yalan, riyakarlıq, saxta duyğular,
Sönməsə, arzudan, həyatdan keçin.
Sağlam düşüncənin üstünə aşkar
Qılınc qaldıracaq ədalətlə kin.

Şər – o quleybanu hədə gəlir bax,
Varlığa həyasız qəhqəhəsilə.
Gəlin, ay insanlar, birləşib duraq,
İşığın, günəşin cazibəsində.

1965-ci ilin iyun ayında Bakıda Naxçıvan mədəniyyət günləri keçirildi. Nümayəndə heyətinin tərkibinə hər ikimizi daxil etmişdilər. Bakıda, Sumqayıtda, Neft Daşlarında olduq. Mən Naxçıvan yazıçılarının yaradıcılığı haqqında məruzə edirdim, sonra şairlər şeirini oxuyurdu. Hüseyn Razinin şeirləri yenə də diqqəti daha çox cəlb edirdi. Mədəniyyət günlərilə bağlı mən Naxçıvan yazıçılarının yaradıcılığına həsr olunmuş böyük bir məqalə yazmışdım. Orada Hüseyn Razi haqqında da geniş söz açılırdı. Sonralar da şair dostumun ayrı-ayrı kitabları, tamaşaya qoyulan dramları haqqında məqalələr yazardım.

Bu mədəniyyət günlərində Bakıda xoşagəlməz bir hadisə baş verdi. Həmin vaxt Ermənistandan hansısa teatr qastrola gəlmişdi. Onların tamaşalarının birində açıq şəkildə Azərbaycan ərazilərinin bir qisminin ermənilərə məxsusluğu deyilirdi. Bakı ziyalıları belə həyasızlığa qarşı öz kəskin etirazların bildirirdilər. Görkəmli alim, teatrşünas Cəfər Cəfərov mətbuatda çıxış etdi. Ermənilər öz çirkin əməllərini sonralar da müxtəlif vasitələrlə davam etdirdilər.

20-25 ildən sonra Qarabağ məsələsi qızışdırılanda Naxçıvanda keçirilən mitinqlərdə çıxış edən ziyalılardan biri də Hüseyn Razi idi. O, xalqımızın bu taleyüklü məsələsinə dair bir neçə şeir də yazmışdır.

1982-ci ilin oktyabr ayında qızımın toyu idi. O zaman toylar adətən həyətlərdə keçirirlər, qonaqların sayı az olardı. Mən də ata evinin həyətində 100 nəfərlik məclis düzəltmişdim. Məclisin

aparıcısı Hüseyn Razi idi. O, müdrik kəlamlarla zəngin olan çıxışları ilə məclisi yüksək səviyyədə idarə etdi. Özünün və başqa şairlərin şeirlərindən çoxlu nümunələr dedi və bütün bunları yeni ailə quran gənclərin toy mərasimi ilə əlaqələndirdi. Məclisin sonunda şair yeni yazdığı «Gəlin köçən qızlara» şeirini oxudu.

Sən bahar gülüsən, bu gündən daha
Ömürdən-ömürə calaq olursan.
Ətrin azalmayır, şükür Allaha,
Təzə xanimana çıraq olursan.

Səndən ayrılmasın əhdə sədaqət,
Həyatda pozulmaz bir izin olsun.
Sənə tapşırılan ocağa hörmət,
A qızım, birinci cehizin olsun.

Həmişə sadiq ol içdiyin anda,
Səni nəslimizə bir şöhrət yazım.
Birinci oğluna ad axtaranda,
Babəki yadından çıxarma, qızım…

Hüseyn nəşr olunmuş bütün kitablarını mənə avtoqrafla verərdi. 1977-ci ildə çapdan çıxmış «Canlı tonqal» kitabının titul səhifəsində bu sözləri yazmışdı: «Alim dostum Yavuza kiçik xatirə. 9.1.78». 1981-ci ildə çıxan «Ayrılmaram» kitabında isə belə yazmışdı: «Hörmətli Yavuza ən gözəl arzularla dost yadigarı. 10.III.82». Son «Gözün aydın» kitabında (1996) isə «Hörmətli alim Yavuz bəyə ən gözəl arzularla müəllif yadigarı. 22.10.96».

Mən şairin bu kitabına geniş rəy yazdım və «Azərbaycan» jurnalında çap etdirdim.

«Gözün aydın» kitabı bir neçə cəhətdən şairin yaradıcılığı üçün olduqca əhəmiyyətli idi. Buraya şair əvvəlki kitablarına daxil etmədiyi, edə bilmədiyi şeirlərindən nümunələr vermişdir. Müstəqillik ruhu ilə yoğrulmuş yeni şeirlərini salmışdı. Kitabda müəllifin səmimi etirafları diqqəti cəlb edirdi. Müqəddəs islam

dininə hörmət ifadə edən şeirləri də var idi. Bunları görməmək, qiymətləndirməmək düzgün olmazdı. Bu yeni kitab çağdaş poeziyamızda öz səsilə seçilən istedadlı şairin bütün yaradıcılığı haqqında dolğun təəssürat oyatmağa kömək edir...

Onu da qeyd edək ki, dövrün, zəmanənin kəşməkəşli hadisələri H.Razinin də şair taleyindən yan keçməyib. O da hamımız kimi mürəkkəb bir zəmanədə yaşamağa məcbur olmuş, dövrün əzab-əziyyəti onu da daim sıxmışdır:

Günahların arasında ölçülməyən,
Hesaba gəlməyən
Dolaşıq bir kələfdi…
Yolum haqq divanına tərəfdi.
Başıma döyə-döyə
Mizan-tərəzidən keçməyə
Sürünürəm ağır-ağır,
Üstümə haqlı tənələr yağır.
Günah yükümü dünya malı kimi,
Vağzal hambalı kimi
Qamarlayıb ağır elədim,
Çiyinlərimi yağır elədim.
Günahlarım ali qəbullara,
Üzü yoxuşa yollara buraxılış,
Acgöz, qarınqulu vəsiqəsi
Acların mədə şirəsi.
Sağlıqlarda eyş-işrət anında,
Günahlarım haqsızlıq dəyirmanında
Sürtüləydi kaş.
Neçə ildir haqqı dənlikdən unluğa
Üyüdürəm, qardaş.
Ömrün istisi soyuyan zaman,
Dəyirmanına qadağan saatı qoyulan zaman,
Gerçəkliyi tapmışam,
Ancaq gecdir, çox yubanmışam.

Şairin avtobioqrafik səciyyə daşıyan belə şeirləri çoxdur.

H.Razi qədim Azərbaycan torpağı Naxçıvanda yaşayır və onun şeirlərində bu yurdun özünəməxsus gözəllikləri, səciyyəvi cizgiləri əks olunurdu. «Oğlanqala» şeirində yarğanda tənha qalanın «tarixi vərəqlənir». «Bu yerlər», «Dəstə kəndi», «Arpaçay vadisində» şeirlərində də eyni səmimiyyəti hiss edirik...

Onun «Bizi qoru ulu Tanrı» (1991), «Minacat» (1993), «Məkanın pak ürəklidir» (1993) kimi şeirlərində müqəddəs dinimizə, Ulu peyğəmbərimizə ehtiram hissi öz poetik ifadəsini tapmışdır.

Məkanın pak ürəklərdir Məhəmməd, ya Rəsulallah!
Adınla sölələnmişdir şəriət, ya Rəsulallah!
Silahdır, ali hikmətdir, basılmaz ordudur daim,
Bizə müşkül sınaqlarda bu qüdrət, ya Rəsulallah!
Bu gün də atəş altında dayanmışdır müsəlmanlıq...
Durubdur yollar üstündə xəyanət, ya Rəsulallah!
Alovlar adlayıb keçsək, yolundan dönmərik əsla,
Buna şəhidlərin qanı zəmanət, ya Rəsulallah!

Şair gəzməyi, səyahət etməyi çox sevərdi. Keçmiş SSRİ məkanının, demək olar ki, bütün respublikalarında olmuşdu. Polşa, Macarıstan, Çexoslovakiyaya səfər etmişdi. Ömrünün son illərində Məşhəd və Kərbəla ziyarətlərinə getmişdi.

H.Razi şəxsi həyatında da təvazökarlığı, sadəliyi, səmimiliyi, obyektivliyi ilə seçilirdi. Ailə qayğıları onu daim narahat edirdi. Övladlarını gözəl tərbiyə etmiş şair son illərdə bütün diqqəti nəvələrinə yönəltmişdi.

Zamanın kəşməkəşləri, xüsusən Qarabağ hadisələri həssas qəlbli şairə çox təsir edirdi. 1994-cü ildə onun 70 illiyi nədənsə geniş qeyd olunmadı, kiçik dairədə dostları şairi təbrik etdi. Mən də çıxış etdim. Şair xəstəhal idi. Yenə də görüşüb dərdləşərdik. Nəhayət, 1998-ci il fevral ayının 27-də dünyasını dəyişdi. Öz vəsiyyətinə görə doğma Dəstə kəndində torpağa tapşırıldı. Onun yas mərasimində muxtar respublikanın hər yerindən adamlar

Dəstə kəndinə gəlib şairə son borclarını verirdilər. Bakıdan da gələnlər çox idi. H.Razi ədəbiyyatımızda daim yaşayacaq sənətkarlardandır.

Ruhu şad olsun.

*«Xatirələr işığında».*
*Bakı: Nurlan, 2004, s. 8-19.*

**Muxtar QASIMZADƏ**
*şair*

## SÖZ ÇEŞMƏSİ

Vətəndaşlıq qüruru, bu qürurun poetik həlli H.Razi yaradıcılığında mükəmməl və uğurludur. Müasir ədəbi proseslə paralelləşən, orijinal dəst-xəttə malik olan istedadlı şairimiz H.Razi sənətin çətin yollarında inamla addımlamışdı. Şairə görə istedad bir qanaddırsa, zəhmət də bir qanaddır. Sənət üfiqlərinə isə yalnız bu cür qoşa qanadla yürüşə çıxmaq olar. Şairə görə bir də:

***Əsl şeirin bir sehrkar qüdrəti var,***
***Manіələr zəncirini qıra bilir.***
***Başına od tökülsə də,***
***Həqiqətin keşiyində dura bilir...***

Sənətkar ürəyi, sənətkar düşüncəsi dinclik bilmədən həmişə axtarışdadır. Onun ürək çırpıntıları, yaşadığı hislər söz-söz misralandıqca bizim mənəvi dünyamızı daha gur işıqlandırır. Məhz buna görə H.Razinin yaradıcılığında ürək haqqında poetik mühakimə təbii olaraq poetik sualın ixtiyarına buraxılır.

***Bir dünyadır – döşdədir.***
***Hər vaxt kəşməkəşdədir.***
***Yaranandan işdədir,***
***Ürək nə vaxt dincəlir?***

Hər şeydən əvvəl şairin başlıca ilham mənbəyi Vətən torpağıdır. Bu torpağın bir qarışı ucsuz-bucaqsız yad torpaqlardan, reklamlar içində xumarlanan əcnəbi məmləkətlərdən qat-qat əzizdir.

***Doğma yurd qədim bir təzkirə kimi***
***Hər gün varaqlanır gözüm önündə.***
***Yandıqca alışan bir kürə kimi***
***Nuru özündədir, alovu məndə.***

H.Razi öz yaradıcılığında çoxəsrlik mədəniyyətimizə, qəhrəmanlıqla dolu tarixi keçmişimizə, milli sərvət və etnoqrafiyamıza böyük məhəbbətlə yanaşır. “Mömünə xatun məqbərəsi”,

“Əlincə qayaları”, “Nəiminin məzarı başında”, “Gilan çayı” şeirləri, “Zülmətdə işıq” tarixi poeması vətəndaşlıq hissi ilə qələmə alınmış əsərlərdəndir. H.Razi yaradıcılığının sanki yeddi rəngi, yeddi səsi var. Bu rənglər, səslər silsiləsində şairin həyata hərtərəfli müdaxiləsinin yaxın bələdçisi oluruq. Rənglər, səslər arasında vətən torpağının ətrini, istisini duyur, dünyanı səyahətə çıxır, qitələr adlayır, meridianlar keçirik.

Şair Xəlil Rza “Qədim diyarın tərənnümçüsü” məqaləsində H.Razinin yaradıcılığını yüksək qiymətləndirərək fikrini belə ifadə edir: “İncə poetik eyhamlar, işarələr, mətləbin həm birbaşa, həm də dolayı ifadə tərzi onun poeziyasına qanad gətirir... Poeziyasının ən yaxşı örnəklərindən H.Razini bir şair kimi tanımağa imkan verən məziyyətlərini aydın görürük: saf ictimai duyğu, vətən tarixinə qaynayıb-qarışmaq əzmi, öz xalqının adından danışmağa mənəvi hüquq qazanmış bir insanın qüruru, fəal vətəndaş mövqeyi. Məncə, bunlar şair üçün son dərəcə gərəkli və əvəzsiz keyfiyyətlərdir”.

Müəllifin səyahət şeirləri də böyük maraq doğurur. Onun Koktebeldə, Yaltadada, Riqada, Praqada, Budapeştdə, Bratislavada və sair coğrafi hüdudlarda qələmə aldığı onlarla şeir şair qələminin ən yaxşı poetik məhsuludur.

“Xatirələr, düşüncələr” şeirlər silsiləsində H.Razinin insan və zaman haqqında mühakimələri aşkarlanır. Biz bu silsilədə həm də həyatın müxtəlif rənglərini görür və eşidirik:

***Söz var gurultuludur, hikmət sayırlar,***
***Hələ deyilməmiş alqışlayırlar.***
***Söz var, haçalayıb söz başlayırlar***
***Ağzına gələni danışma, dilim.***

“Gəldim görüşünə” şeirlər silsiləsində isə H.Razi saf məhəbbətdən, ilk eşqin həyəcanından, kövrək xatirdən söhbət açır.

***Əgər gülməsəydi ala gözlərin,***
***Mən sənə heç zaman bel bağlamazdım.***

***Mən sənin yerinə olsaydım əgər,***
***Ölərdim, əhdimi ayaqlamazdım.***

Məhəbbətin ülviyyətini yüksək sənətkarlıqla xarakterizə edən, tutarlı obraz və təşbehlərlə cilalamağı bacaran H.Razi əsasən lirik hislərini şeirə gətirəndə klassik şeir ənənələrinə tez-tez müraciət edir. Ümumiyyətlə, H.Razi bədii ədəbiyyatımızın bünövrəsi sayılan qoşma və qəzəlin öhdəsindən sənətkarlıqla gələn istedadlı şairlərimizdəndir. Onun qoşma və qəzəllərinin bir çoxunu bu gün müğənnilərimiz böyük məhəbbətlə oxuyurlar.

Müəllifin müxtəlif mövzulara həsr olunmuş bir sıra poemaları da vardır ki, onlar ədəbiyyatımız üçün dəyərli töhfələrdir. “Baltik göylərində” poeması şairin cəbhə xatirələrinin məhsuludur. O, “Zülmətdə işıq” poemasında böyük Azərbaycan alimi Nəsirəddin Tusinin həyatını və dövrünü əks etdirir. “Arpa çayı aşdı-daşdı” poemasında isə müəllif günün əmək qəhrəmanlarının fədakarlığını qələmə alır.

Ustad sənətkarımız H.Razinin şeirləri, ana torpağın ətriylə yoğrulan həmişəbahar poeziyasıdır. Biz bu poeziyanı Azərbaycan şeirinin ən yaxşı nümunələri kimi oxuyub sevir, hər zaman təqdir edirik.

1981.

**Xanəli KƏRİMLİ**
*filologiya üzrə fəlsəfə doktoru, dosent*

## ETİRAF İNSANIN UCALIĞIDIR

Şair nə daşdır, nə də dəmir. O, hər şeydən əvvəl insandır. Türk şairi Nəcib Fazil Kısakürək şairi “insan ehramının zirvə daşı” hesab edirdi. Buna görə də tanrı insanlar arasında birinci peyğəmbər, sonra şair seçir. Bəlkə elə buna görədir ki, şairin haqq divanında savabı nə qədər böyükdürsə, “günahı” da bir o qədər bağışlanılmazdır.

XX əsr Naxçıvan ədəbi mühitinin böyük ədəbiyyata bəxş etdiyi istedadlı şair Hüseyn Razinin əlli illik yaradıcılığı bu günün işığında saf-çürük ediləndə aydın oldu ki, o, haqq dərgahında savabı “günahından” çox-çox ucalarda duran şairlər sırasındadır. Yəni H.Razi ədəbi nəsildaşlarından B.Vahabzadə, X.Rza, M.Araz, S.Tahir, N.Həsənzadə... kimi qələminə, duyğu və düşüncəsinə son dərəcə sadiq qalmağa cəhd edən şair idi. “Gəmidə oturub gəmiçi ilə dava etmək” mümkün olmadığı kimi bolşevik-sovet rejimində yaşayıb movcud ideologiyadan da yaxa qurtarmaq imkansız idi. Bu gün müstəqil, azad, demokratik bir şəraitdə yaşayan bəzi “patriotlar” sovet ideologiyası məngənəsində bir çox hallarda havasızlıq şəraitində yaşayıb yaradanları ağına-bozuna baxmadan qınağa çəkir, ustad B.Vahabzadə demişkən “onlardan çox şeylər tələb edirlər”. Lakin belələri unudurlar ki, hər bir sənətkara, şəxsiyyətə yaşadığı dövrün qanunauyğunluqları prizmasından yanaşmaq lazımdır. Bunsuz hər cür qiymət və mühakimələr qüsurludur. H.Razi də adları çıkilən (X.Rza istisna olunmaqla) ədəbi nəsildaşları kimi həbs olunmasa da, ciddi təqiblərə məruz qalmasa da, etiraf etməliyik ki, səksəkəli, narahat şair-vətəndaş ömrü yaşamışdır.

İllər boyu qorxuların tilovunda, torunda mən
...Keyləşərək, bir qəlibə yerləşərək daşa döndüm.

Şairin bu misralarını oxuyanda qələm və əqidə dostu X.Rzanın aşağıdakı misraları yada düşür:

Mən qorxuyla qorxususluq arasında yaşayıram,
Sanki bəbir bəbəyində, şir ağzında yaşayıram.

Mərhum yazıçımız Y.Səmədoğlu ədəbiyyat və sənət haqqında düşüncələrini oxucularla bölüşəndə yazırdı: "...Azərbaycan ədəbiyyatının faciəsi bəlkə də ondadır ki, bizim heç birimizin "sandığında" əsərimiz qalmayıb" (Ədəbiyyat qəzeti, 08.01.1999). Lakin H.Razinin sağlığında sonuncu kitabı kimi işıq üzü görən "Gözün aydın"ın (Bakı, 1996) əsas hissəsini "sandıq" ədəbiyyatı təşkil edir",- desək, yanılmarıq. Yaşadığı dövrün tarixi həqiqətlərini bugünkü oxucu kütləsinə çatdıran şair özlüyündə bir etiraz şairi idi. H.Razinin özü də şeirlərinin birində yazır ki, "təpədən dırnağa bir etirazam". O, doğulduğu zamanı özünə zaman kimi qəbul etmirdi. Gah özünü keçmişin, gah da gələcəyin şairi hesab edirdi:

Gah keçmiş oluram, gah da gələcək,
Hər halda indiki zaman deyiləm.

Şair "hər halda indiki zaman deyiləm",- desə də, bir çox hallarda təbii olaraq zamanın diqtəsindən də yan keçə bilməmişdir:

Daş bütlərə həyat verdim
təriflə mən, alqışla mən,
Vicdanımı dana-dana,
Həqiqəti danmağımı qana-qana,
Mən rəzalət kəndirində
Kəndirbazın kosasını yamsıladım...

Ona görə də:

Ömür keçdi, adamlığın kitabına
Yazılmadı mənim adım –

deyir.

Bu, bir qələm sahibinin etirafından çox, ideologiyanın yaratgığı "yalanların neçə səsli xorunda" aldana-aldana yaşayan, yaşaya-yaşaya aldanan bir xalqın etirafı idi.

Savabı və günahı ilə əkiz doğulan insan yeganə varlıqdır ki, onun içərisində xeyirlə şər baş-başadır. O, bir addımı ilə savab əhli olursa, digər addımıyla haradasa günahın qapısını döyür. Savab Allahdan, günah şeytandandır. Etiraf isə savabın günah, xeyirin şər üzərində qələbəsidir. Etiraf haqq yoludur, ədalət yoludur:

Günahlarım arşınla ölçülməyən,
hesaba gəlməyən
dolaşıq bir kələfdi.
Yönüm haqqa tərəfdi.

Və yaxud da:

...Ömrün istisi soyuyan zaman
Dəyirmanıma qadağan saatı qoyulan zaman
Gerçəkliyi qanmışam,
Ancaq gecdir çox yubanmışam.

Yaşadığı əsrin 90-cı illər Azərbaycanının qanlı faciəsini görən şair hələ böyük uzaqgörənliklə 60-cı illərdən 90-cı illər faciəsinə gələn qanlı yolun cizgilərini duyur və həmin illərdə yazdığı bir şeirində çox üsyankarcasına bolşevik-sovet ideologiyasının təbliğ və tərənnümçüsü olan şovinist məfkurəsi ilə zəhərlənmiş "böyük qardaşlarımızın" atalığından imtina edirdi. Yeraltı, yerüstü sərvətlərimizi nankorcasına talayan, ancaq "övladını" quru yurdda qoyan, ağlagəlməz təhqir və tənələrə düçar edən "atalığa" şairin qəzəbi və nifrəti sonsuz idi:

Qoy eşitsin bütün aləm, şərəfsiz, qansız atadan
belə vicdansız atadan
Yetim qalmaq istəyirəm.
Yetim qalmaq istəyirəm.

90-cı illərin qanlı hadisələri H.Razinin də illər boyu bolşevik-sovet ideologiyasına "bəslədiyi" ümid və inamını öldürdü. Ona görə də içimizdəki, gözümüzdəki qənimlərimizin hesabına sərvəti talan olunmuş, torpaqlarının bir hissəsi əldən getmiş xalqının mənəvi sarsıntılarını görəndə özünün şair məninin tim-

salında bütün bu faciələri ümumiləşdirərək yazırdı:

Mən ömrümün son günündə
heybəsi boş, özü sərxoş
Təsadqfi yolçu kimi gəlməkdəyəm.
Üzüntülü günlərimin indi artıq
əzabını bilməkdəyəm.

Lakin şair təkcə bu etirafları ilə vəzifəsini bitmiş hesab etmir. O, eyni zamanda bugünkü və gələcək nəsildaşlarını, xüsusilə qələmdaşlarını yalançı, riyakar təbliğata uymamağa, vətən, millət naminə ayıq olmağa çağırır və:

Ölü kimi yaşasam da,
Diri kimi ölməkdəyəm

deyir.

Həyatda və ədəbiyyatda çox az adamlar, sənətkarlar tapılar ki, onlar ömürlərinin ixtiyar çağlarında ağlın, düşüncənin yetkinlik məqamlarında bir anlığa ayaq saxlayıb keçmişinə nəzər salsın, insanlığın etiraf adlı kamillik zirvəsinə yüksəlsinlər. H.Razinin bir şair kimi ictimai bəlalardan doğan "üzüntülü günahlarının" etirafı nə qədər böyük, alicənab idisə, vətən sevgisi və məhəbbətinin etirafı da bir o qədər uca idi. O. Vətənə quru torpaq, ruhu ölgün bir varlıq kimi baxmamışdır...

Öz yurduma vurulmuşam,
Giləlinib durulmuşam,
Bu ocaqda yanar daşam,
Bacarırsan qoru məni.

Canı candan, qanı qandan ayırmaq mümkün olmadığı kimi H.Razini də bütün etirafları, etiraz və etiqadları ilə müstəqil, azad Azərbaycan torpağından, Azərbaycan poeziyasından qoparmaq mümkün deyil. Vətən adlı bu ocaqda əbədiyaşar H.Razi bu gün Vətən torpağının bir ovucuna dönsə də, onun poeziya işığı hər səhər doğan günəş kimi bu torpağı salamlamaqdadır.

***"Şərq qapısı" qəzeti 13 dekabr 2003.***

**Aydın CANIYEV**
*jurnalist*

## ONA "NAXÇIVANIN SƏMƏD VURĞUNU" DEYİRDİLƏR

Onu kişi sayırdı "salam" verib "əleyk" alanlar! Onda yalanı, yaltağı, yağını öldürən həqiqət vardı! Ondan bizə nə odda yanan, nə də suda batan ədəbi yaradıcılığı yadigar qalıb. Onun adını ismin hansı halında hallandırsan, nəticə etibarı ilə insani keyfiyyətlərin əmsalı yüzdən aşağı enmir. Və mən özümə heç cür haqq qazandırıb yaza bilmirəm ki, biz onu itirdik, yaxud da ondan məhrum olduq. Yox, o, sadəcə bizdən imtina etdi və bizi özümüzlə baş-başa qoyub sözünü dedi: "Müəllim belə olar, şair belə olar, döyüşçü belə olar, kişi belə olar!"

Doğulduğu torpaqdan ölən gününəcən ayrılmadı. O, torpaqda yaşamaq haqqını Berlinə qədər vuruşa-vuruşa qazanmışdı. Və bu torpağı heç bir vəzifəyə dəyişmədi. "Naxçıvanın Səməd Vurğunu" sayılan bu adam Səməd Vurğun kimi Yazıçılar İttifaqının sədri olmasa da, katibi ola bilərdi. İstəmədi, olmadı.Yalnız arzusu bu oldu ki, "gurultular içində keçən ömürdə lal sükuta ehtiyacım var, çünki bu gurultular dəhşət səpir, Bu səslər ömrümüzə qəsd edir". O görürdü və duyurdu: "Həyat meydan açıb yalana, hər vüqar möhtacdır bir alçalana. Dədəsi dilənçi, özü cibkəsən" olanların "kişilənib öyünən Rüstəmi-Zallar"ın üzünə şax deyirdi:

***Yüz il hakim olsan, öz zəhmətimə,***
***Mən səndən mükafat uman deyiləm.***
***İmzan ləkə olar ləyaqətimə,***
***Dağam mən, dağdakı duman deyiləm.***

Yaradıcılığı ilə tanışlıqdan sonra 14 şeir kitabının, dövlət teatrlarında tamaşaya qoyulmuş altı pyesinin, yüzlərlə məqalə və oçerkin müəllifi, qırx ildən çox "Şərq qapısı" redaksiyasında çalışmış, ədəbiyyat və incəsənət şöbəsinə rəhbərlik etmiş bu gözəl insanla maraqlanmağa başladım. İstənilən mövzuda istənilən qədər danışan, yazan görkəmli tərcüməçi, şair, publisist Zeynal

Vəfa ondan söz düşəndə bildirdi ki, o, böyük insandır. Gərək oturub fikrini-zikrini cəmləyib onun sözə qiymət verdiyi səviyyədə söz deyəsən.

O vaxt Naxçıvanda Azər. Tac-ın müxbiri olan, indi isə *(1998-ci il nəzərdə tutulur – F.X.)* "Azərbaycan" qəzetinin işçisi Namiq Əhmədov: "O, kişi və təmiz adam idi. Onunla yalnız ağsaqqallar ərk edib danışa bilərdilər",- söylədi.

"Şərq qapısı" qəzetinin redaktoru işləmiş yazıçı-publisist Akif Axundovun da dili ağzına sığmırdı: "1967-ci ildə məni tanımadan "İnad bəlası" adlı hekayəmi qəzetdə dərc edib. Şerə, sənətə böyük qiymət verən sənətkar zəif əsərlərin qəzetə yol açmasına imkan vermirdi. Zəif yazan həvəskarlara aşıq şəkildə bildirirdi ki, özlərinə iş tapsınlar. Mən "Şərq qapısı"na redaktor təyin olunanda ədəbiyyat və incəsənət şöbəsinin müdiri idi. Yaşının çox olmasına baxmayaraq, cavanlardan da məhsuldar işləyirdi. Mütaliə həvəskarı idi. Savadına və biliyinə söz ola bilməzdi. Ömrünün son gününə qədər yazıb yaratdı".

Yaşadığı cəmiyyətin iyrənclikləri olan minnətli işdən, təmənnalı xahişdən uzaq olub. İllah da ki, son vaxtlar meydana çıxan şairlərə sponsorluq meyillərini ümumiyyətlə əskiklik sayıb. Gözəl bir ömür yaşamış bu insanın həyatını vərəqlədikcə adam öz-özünə qət edir ki, ömrünün keçən hər gününə tövbə desin. Daş atıb, baş tutub,- yaşamaq olmur,- deməklə bütün naqis hərəkətlərinə haqq qazandıranlara var gücünlə bağırıb demək istəyirsən: "Axı elə sənin də, mənim də yaşadığımız bu həyatı belə bir insan – Hüseyn Razi də yaşayıb!"

Naxçıvanda Əshabi-Kəhf abidəsi var. Əsrlərdir ki... burada Allahdan onları daşlaşdırmağı xahiş edən bəndələr zülmdən xilas olublar. Neçə nəfərdirlər, sayını deyə bilmərəm. Bildiyim odur ki, bu torpağın gələnlərindən-gedənlərindən onun da adı Əshabi-Kəhfə həkk olunub, cənnətə gedənlərin sayı bir nəfər də artıb. Onun adı Hüseyn Razidir!

***"Naxçıvan" qəzeti, 30 dekabr 1998.***

**Zakir RZAYEV**
***tarix üzrə fəlsəfə doktoru,***
***dosent, şairin oğlu***

## ATAMIN CƏBHƏ XATİRƏLƏRİ

Hələ uşaqlıqdan müharibə iştirakşılarının şöhbətlərindən onların hər çətinliyi gözləri önünə alaraq qələbə əzmi ilə döyüşə atıldıqlarını, Vətənin hər qarış torpağı uğrunda canlarından keçdiklərini öyrənmiş, torpağın nə qədər müqəddəs olduğunu anlamışam.

Atam Hüseyn Razi cəbhə yolunu müharibədən sonra “Buludlar arasında” povestində qələmə almışdır. Əsərdə o, özünün cəbhə yolunu ədəbi-bədii janrda işıqlandırmışdır. Ancaq onun şəxsi arxivinə nəzər salarkən maraqlı faktlarla rastlaşdım. “Gündəlik”lərində uyuyan xatirələrini oxuduqca məndə belə bir inam yarandı ki, ölüm və dağıntı gətirən müharibəni görənlərdə cəsarət həyat eşqini üstələyir.

Atam 19 yaşı tamam olarkən 1942-ci ilin sentyabrında hərbi xidmətə çağırılır. 1943-cü ilin iyulun 23-nə qədər piyada atıcı alayının tərkibində Oryol uğrunda gedən döyüşlərdə iştirak edir. Şəhər uğrunda gedən döyüşlər qanlı və amansız xarakter daşıyır. Düşmən hər vəchlə böyük itki bahasına da olsa, şəhəri almaq istəyindən əl çəkmir. Əsgərlərimiz isə möhkəm dayanır. Ağır döyüşlərin birində ayağından yaralanan atam bir neçə aylıq xəstəxana həyatından sonra aviasiya mütəxəssisləri hazırlayan məktəbə göndərilir. LA-5 qırıcı təyyarələrini nəzəri və təcrübi tərəfdən öyrəndikdən sonra II Pribaltika cəbhəsinin uzaq hava kəşfiyyatı alayında xidmətini davam etdirir.

O öz “Gündəliy”ində həmin hadisəni belə xatırlayır: “1944-cü ilin 1 yanvar səhəri Velikiy-Luki stansiyasında qatardan düşəndə şəhərin üstündə düşmən təyyarələri cövlan edirdi. Şəhər bir neçə gün öncə düşməndən təmizlənsə də, cəbhəyə yaxın olduğundan atəş səsləri aydın eşidilirdi. Daldalanmaq üçün kiçik

bir koma belə qalmamışdı. 1944-cü ilin ilk gününü mən belə qarşıladım".

Düşdükləri alayda LA-5 təyyarələri olmadığı üçün PE-2 təyyarələri ilə işləməyə başlayırlar. Bu təyyarələr 4000 metr ucalıqdan düşmən obyektlərinin şəklini çəkir, strateji əhəmiyyətli nöqtələrə zərbələr endirirdi.

Onun xatirələrində belə bir qeydə də rast gəldim: "Hər gün təyyarələrə bomba ilə bərabər milyonlarca nüsxə vərəqə yükləyirdik. Bu vərəqələr Stalinqradda əsir düşmüş feldmarşal Paulus tərəfindən alman əsgərlərinə yazılmış, müharibədə Hitlerin məğlubiyyətə doğru getdiyindən bəhs edən müraciəti idi".

II Pribaltika cəbhəsinin əsgərləri irəlilədikcə hava-kəşfiyyat alayı da onlarla öz yerini dəyişirdi. Atam xatirələrində qeyd edir: "Komandanlığa məlumat verilmişdi ki, düşmən qüvvələri Baltik dənizi ilə İsveçə, oradan isə başqa ölkələrə qaçmağa çalışırdılar. Bizim alayın əsas vəzifəsi düşmən qoşunlarının qarşısına dənizdən və havadan keçilməz sədd çəkmək idi. Biz yuxusuz gecələr keçirir, hava sərhədlərimizin qorunması üçün əlimizdən gələni edirdik. Alayımızdakı təyyarələr hər an döyüşə hazır dayanırdı".

Atamgilin hərbi hissələri müharibənin sonuna kimi II Pribaltika cəbhəsinin tərkibində qalır.

Faşist Almaniyası üzərində qələbədən sonra hərbi hissəni militarist Yaponiyaya qarşı vuruşmaq üçün Uzaq Şərqə göndərirlər. Ancaq alay bu müharibədə iştirak edə bilmir. İrkutsk yaxınlığında Yaponiyanın təslim olması xəbərini eşidirlər. Yenidən Sibirdən Moskvaya, oradan isə Kostromaya qayıdırlar. Qələbə gününü Litvanın Şaulay qəsəbəsində qarşılayırlar. Atam yazır: "Həmin gün komandanlıq məntəqəsində növbətçi idim. Axşamüstü komandirin adına bir teleqram gəldi. Teleqramlar həmişə şifrə ilə verilirdi. Bu dəfə teleqram morze əlifbası ilə verilmişdi. Komandanlığa verilən teleqramı nəzərdən keçirdik. Çox qəribə bir teleqram idi. Cəbhə komandanlığı uçuşa gedən təyyarələrə

bomba və hərbi sursat götürməyi qadağan edir, havadan düşmənin canlı qüvvəsinə atəş açmamağı əmr edirdi. Havaya boş qalxan təyyarələr ancaq Baltik dənizinə və dövlət sərhədlərinə nəzarət etməliydilər".

Atam cəbhə yoldaşlarını isə belə xatırlayırdı: "Cəbhə dostluğu qan qardaşlığıdır".

Bu gün hər kəs dinclik, sabitlik, azadlıq və qələbə uğrunda vuruşanları dərin hörmət və iftixarla yad edir. Atam I və II dərəcəli Böyük Vətən müharibəsi ordenləri və bir sıra medallarla təltif olunmuşdur. Bu gün onun keçdiyi döyüş yolu ilə fəxr edirik.

***"Şərq qapısı" qəzeti, 7 may 2005.***

**Sərvaz HÜSEYNOĞLU**
*jurnalist*

## ANIM GÜNÜNDƏ

Bu günlərdə *(6 noyabr 2009 – F.X.)* Azərbaycan Yazıçılar Birliyinin Natəvan klubunda tanınmış şair Hüseyn Razinin anım günü keçirildi. Mərasimi AYB-nin birinci katibi, xalq şairi Fikrət Qoca açaraq dedi: “Bu gün həmişəyaşar şairimiz Hüseyn Razini ən xoş duyğularla yad edirik. Mən ona görə “həmişəyaşar” deyirəm ki, onun poeziyası, yaradıcılığı həmişəyaşardı. Sənət adamlarının ömür üfüqləri yaşadığı illərin sayı ilə yox, yazıb-yaratdıqlarının yaşarılığı ilə ölçülür. Hüseyn Razi çox narahat, məsuliyyətli, təbii, bənzərsiz bir insan idi. Tez-tez Bakıya gəlirdi. Ürəyinin bir hissəsini burada dostlarıyla boşaldırdı, sonra da tələsik öz doğma Naxçıvanına dönürdü. Yaşasaydı indi 85 yaşını qeyd edəcəkdik. Bir daha deyirəm ki, əsl sənətkar cismən dünyasını dəyişir, mənən, ruhən yaşayır. Bu səbəbdən də mən unudulmaz şair dostuma “85 yaşın mübarək” deyirəm.

Tədbirin aparıcısı, yazıçı-dramaturq, AYB-nın dramaturgiya seksiyasının müdiri Firuz Mustafa vurğuladı ki, böyük ədəbiyyatın vətəni, məkanı da böyük olur. “Hüseyn Razi ömrünü ədəbiyyat yolunda şam kimi əritdi. Hələ orta məktəb illərində mən onun “Odlu diyar”, “Arxalı dağlar” pyeslərini oxumuşdum. Sonralar şairin “Şirinliyin acısı” əsəriylə, digər şeirləriylə tanış oldum. O tanışlığın unudulmaz təəssüratları hələ də mənimlədi”.

Tanınmış şair İlyas Tapdıq H.Razinin İkinci Cahan savaşının od-alovundan keçmiş bir qələm adamı olduğundan söz açaraq onun Naxçivan ədəbi mühitinin formalaşmasındakı rolunu yüksək dəyərləndirdi: “Bu məclisdə iştirak edən şair-dramaturqlardan Ramiq Muxtar, Kəmalə xanım həmin ədəbi mühitin yetişdirdiyi insanlardandır. Tez-tez Azərnəşrə gəlirdi. Hal-əhvallaşanda “istirahətdən gəlirəm”,- deyərdi. Rəhmətlik Məmməd Araz, Hüseyn İbrahimov, Nağı Nağıyev onun yaxın dostları idi. Müzəffər

Nəsirli həmişə xahiş edərdi ki, Hüseynin kitabını plana salaq. Deyirdim, a kişi, sən öz kitabını demirsən... Cavab verirdi ki, Hüseyn Razi yaxşı şairdi, ondan muğayat olun. O vaxtlar Hüseynin "Vurğunun ağızdolusu Azərbaycan deməsi" misralı şeiri çox məşhur idi. Tez-tez məsləhət görürdük ki, köçüb gəlsin Bakıya. "Nə deyirziniz,- deyirdi,- Naxçıvandan ayrı yaşaya bilərəmmi?"

Cəsarətli, qorxmaz adam idi. Dövrünün nöqsanlarına qəti etirazlarını ifadə edərdi əsərlərində. Şeirlərində insanın hansı yolla getməli olduğunun düsturunu açırdı".

Şair-dramaturq Kəmalə H.Razini gözəl müəllim, unudulmaz şair kimi xatırladığını vurğuladı, onunla birgə işlədiyi günlərdən söz açdı.

Oqtay Rza şairin "Anamla söhbət" şeirini tədbir iştirakçılarının diqqətinə çatdırdı. "Koroğlunun Karpat səfəri" əsərindən söz açdı, Naxçıvan görüşlərinə ayna tutdu. "O, milli ruhlu insan idi. Hələ sovetlər dönəmində səsini ucaldırdı ki, siz bu ermənilərin həyasızlığını görürsünüzmü, türklərin Ağrı dağına göz dikirlər. Hüseyn sağ olsaydı, Qarabağ itkilərimizdən yana bizləri oda qalayardı".

Tədqiqatçı Rafiq Oday H.Razidən Azərbaycan ədəbiyyatında öz sözünü deyə bilmış şairlərimizdən biri kimi söz açdı, şairin "Şərq qapısı"ndakı fəaliyyətini yüksək qiymətləndirdi.

Tanınmış tənqidçi Vaqif Yusifli şairin "Buludlar arasında" povestini hələ orta məktəbdə təhsil aldığı illərdə oxuduğunu, sonralar onunla şəxsən tanış olduğunu xatırladı. "Hüseyn müəllimlə məni rəhmətlik İsa İsmayılzadə tanış etdi. Öz növbəsində o da mənə məsləhət verdi ki, işlədiyi "Şərq qapısı" qəzetinə məqalələr göndərim. Onun təşəbbüsü ilə "Şərq qapısı" qəzetinə məqalələr yazdım. O, nəğməkar şair idi. Sözlərinə bəstələnən mahnılar dillərdə gəzirdi. Zeynəb Xanlarova, Qulu Əsgərov kimi müğənnilərimiz bu bəstələri böyük məhəbbətlə ifa ediblər".

Professor Minəxanım Təkləli, şairlərdən Mirkazım Seyidov,

Sona Xəyal, Ədalət Əsgəroğlu H.Razinin əsərləirindəki yüksək vətəndaşlıq duyğusundan danışdılar. Yazıçı-dramaturq Ramiq Muxtar onun səliqəli, dəqiq adam olduğunu dilə gətirdi: "Məni səxavətlə çap edərdi. Bayaq İlyas müəllim onun Bakıya köçməməsinin səbəbindən danışdı. Hüseyn müəllim Bakıya köçə bilməzdi. O, Naxçıvanın vurğunu, anasının heyranı idi. Tez-tez doğma Dəstə kəndinə gedər, anasına baş çəkərdi. Bir şeirində yazırdı ki, mən "anacan" deyirəm anamın öz dilində, bu sözdən sonra gəlir sevgim də, sevgilim də".

Tanınmış şair Abbas Abdulla şairlə bağlı xatirələrini danışdı: "Onunla çox görüşlərim olub. Naxçıvanda yazıb yaradanlar çox olsa da, ünsiyyətim daha çox Hüseyn Razi ilə tuturdu. O, Azərbaycan insanının kimliyini ehtiva edən bir şəxs idi".

Anım günündə bədii qiraətçilər... şairin əsərlərindən nümunələr oxudular...

***"Ədəbiyyat qəzeti" 20 noyabr 2009***

**Hüseyn ƏZİM**

## QƏZƏL

Razi, sənin əşarına heyran oluram mən,
Nemətlə dolu süfrənə mehman oluram mən.

Ey bülbüli-şeyda, oxu eşqiylə baharın,
Gəldikcə səsin gül kimi xəndan oluram mən.

Coşdurdu səni yurdumuzun abü havası,
"Qızlar bulağı"ndan keçib ümman oluram mən.

Etdikcə vətən mülkünü şe"rinlə müzəyyən,
Qartal kimi dağlarda nümayan oluram mən.

Şe"rində mətanət duyuram nakəsə qarşı,
Nadanlara dil verməl, pərişan oluram mən.

Hər nakəsə, naəhlə tərəhhüm nəyə lazım,
Etdiklərimə indi peşiman oluram mən.

Bəzən bu xətadidələrin bədnəzərindən
Çarəm nə, əlacım nədi, pünhan oluram mən.

Fəxr eyləyirəm taleyi-məsudimə, şair,
Bəxtim mənə güldükcə, çırağban oluram mən.

Razi, səni yad etdi məhəbbətlə Əzimi
Şair, sənət eşqiylə qəzəlxan oluram mən.

***Ordubad, 1974.***

## SƏNİNLƏ

Səninlə dostluğu, ey əziz şair,
Həmişə müqəddəs saxlayıram mən.
Dostluğa yazdığın nəğməni bir-bir
Dərib dəmət kimi saxlayıram mən.

Dönmədin, dönməzsən, bilirəm heç an,
Sən də ilqarından, sədaqətindən.
Hünərlə qoşduğun hər kiçik dastan,
Süzülür qəlbinin məhəbbətindən.

Bir parça çörəyim, bir damcı suyum
Olsa da, səninlə bölərəm inan.
Günəşli yurdundan mən necə doyum,
De, necə ayrılım eldən, obadan.

Gəl gəzək Şahbuzu, Ordubadı da,
Zeynal Vəfanı da götür özünlə.
Dolaşaq Xalxalı, Batabatı da,
Tanıt bu yerləri şirin sözünlə...

## "KEÇƏL HƏMZƏ" ŞEİRİNİN MÜƏLLİFİNƏ

Bu keçəl həmzələr, keçəl həmzələr,
İynənin ucundan keçən həmzələr,
Yıxacaq dünyanı, yıxacaq bir gün.
Nə qədər həmzələr at üstədilər,
Nə qədər vəzifə, ad üstədilər,
Qardaş, pis olacaq dünyanın işi.

Neçə ki, həmzələr getmir dolayı,
Dəli həsənlərin boynunda gəzir,
Neçə ki, həmzələr meydan sulayır,
Koroğlu əlləri qoynunda gəzir,
Vallah, pis olacaq dünyanın işi.

Bu allı dünyanı, güllü dünyanı,
Bu başıbılalı, küllü dünyanı,
Bircə an lazımdı, cəmi bircə an,
Yerlə yeksan edib qoyalar viran,
Keçəl həmzələrin keçəl başları.

Nə gəldi keçirər dişinə bilməz,
İki əlli döyər döşünə bilməz,
Dazından o yana düşünə bilməz,
Keçəl həmzələrin keçəl başları.

Bu başlar ağıldan uzaqdı, qardaş,
Bu başlar bədənə yasaqdı, qardaş,
Bu yetim dünyamız yetimdi, qardaş,
Keçəl həmzələrə meydan verməyin.

***1986.***

**Ramiz HEYDƏR**

## MƏNİM ŞAİR DOSTUM...

Görüşdük səninlə o şad günlərdə,
Bəxtiyar, firavan, gülşad günlərdə.
Könüllər uzaqdı dərd, düyünlərdən,
Sevdik təravətli baharı, yazı,
Mənim şair dostum, Hüseyn Razi.

Oturduq nə qədər süfrə başında,
Göründün nə gülər, bir gör qarşımda.
Min bir fikir, xəyal eylə başında,
Basdıq bağrımıza coşğun Arazı,
Mənim şair dostum, Hüseyn Razi.

Birlikdə gəzişdik hey Batabatda,
Açdıq o dağlarda qol da, qanad da.
Arzu-diləyimiz birdi həyatda,
Göylərə min şükür söylədik azı,
Mənim şair dostum, Hüseyn Razi.

Qəlbini bağladın bu yurda, elə,
Könlündə duyğular döndü bir selə.
Sözünə nəğmələr səsləndi elə,
Dinlədim, dinlədim bu xoş avazı,
Mənim şair dostum, Hüseyn Razi.

Hərdən xəyallara elə dalıram,
Bilmirəm ki, sənsiz necə qalıram.
Ruhun qarşısında səcdə qılıram,
Səni görmək yenə könlümdə arzu,
Mənim şair dostum, Hüseyn Razi.

Yaxdı hicran betər qəlbimi oda,
Salaram mən səni hər dəfə yada.
Bizi görüşdürdü yenə dünyada,
Muğam Teatrından* ürəyim razı,
Mənim şair dostum, Hüseyn Razi.

**17 fevral 2008.**

** 2008-ci ilin fevral ayında Bakıda Muğam Teatrında keçirilən H.Razinin anım gününə işarə olunur - F.X.*

## ƏSƏRLƏRİNİN BİBLİOQRAFİYASI

### Kitabları

**1958**

**1. Kəndimizin səhəri (şeirlər).-** Naxçıvan, 1958.- 32 s. 24 şeir.

**1960**

**2. Ana məhəbbəti (şeirlər).-** Bakı: Azərnəşr, 1960.- 60 s. 34 şeir.

**1961**

**3. Buludlar arasında (povest).-** Bakı: Uşaqgəncnəşr, 1961.- 92 s.

**1963**

**4. Tarla gözəli (birpərdəli pyes).-** Bakı: Xalq Yaradıcılığı evi, 1963.- 28 s.

**1964**

**5. Ömür yolları (şeirlər).-** Bakı: Azərnəşr, 1964.- 76 s. 43 şeir, 1 poema.

**1966**

**6. Həyəcanlı gecə (povest).-** Bakı: Azərnəşr, 1966.- 125 s.

**1970**

**7. Səsləşən dağlar (şeirlər).-** Bakı: Azərnəşr, 1970.- 148 s. 88 şeir.

**1974**

**8. Həmişəbahar (şeirlər və poemalar).-** Bakı: Azərnəşr, 1974.- 240 s. 106 şeir, 2 poema.

**9. Araz sahilində.-** Bakı: Gənclik, 1974.- 14 s.

**1977**

**10. Canlı tonqal (şeirlər).-** Bakı: Azərnəşr, 1977.- s.96. 42 şeir, 2 poema.

**11. Ayrılmaram (şeirlər).-** Bakı: Azərnəşr, 1981.- 244 s. 105 şeir, 3 poema.

**1985**

**12. Sahil həsrəti (şeirlər).-** Bakı: Yazıçı, 1985.- 296 s. 88 şeir, 4 poema.

**1996**

**13. Gözün aydın (şeirlər).-** Bakı: Azərbaycan, 1996.- 232 s. 188 şeir, 1 roema.

**2011**

**14. Ömür kecdi.-** Bakı: Elm və təhsil, 2011.- 304 s. 203 şeir, 1 pyes.

## ŞEİRLƏRİ

*Azərbaycan dilində*

**1941**

**15. Partizanın andı** // Şərq qapısı – 1941 – 10 oktyabr.

**1942**

**16. Şəlalə**. **Bir parça. III hissə** // Şərq qapısı. – 1942 – 16 iyun.

**1947**

**17. Moskva** // Şərq qapısı, – 1947 -7 sentyabr.

**18. Yeni kənd** // Şərq qapısı.- 1947.- 6 avqust; İnqilab və mədəniyyət.- 1949.- № 5, s.39.

**1948**

**19. Bakı //** Şərq qapısı.-1948.- 28 aprel.

**20. Bu gülzarı, Sevgilim** // Şərq qapısı.- 1948.- 15 oktyabr.

**21. Məhəbbət //** Şərq qapısı.- 1948.- 30 iyun.

**22. Səs verək** // Şərq qapısı.-1948.- 11 yanvar.

**23. Vurğunam //** Şərq qapısı.- 1948.- 14 mart.

**24. Yeni ildə - gələcəkdə //** Şərq qapısı.- 1948.- 16 yanvar.

**1949**

**25. Biz 16 qardaşıq** // Şərq qapısı. – 1949 – 21 dekabr.

**26. Dənizçi qardaşıma //** Şərq qapısı. – 1949 – 24 iyul.

**27. Duyğular** // Şərq qapısı. – 1949. – 7 avqust.

**28. Hünərdən yaranmışıq** // Şərq qapısı. – 1949. – 9 may.

**29. İki qanun** // Şərq qapısı. – 1949. – 20 fevral.

**30. May səhəri //** Şərq qapısı. – 1949. – 1 may.

**31**. **Naxçıvan** // İnqilab və mədəniyyət. - 1949. - № 5. - s.38.

**32. Sən dünyanın günəşisən** // Şərq qapısı. – 1949. – 14 dekabr.
**33. Yeni il şarjları //** Şərq qapısı.- 1949.- 1 yanvar.

**1950**

**34. Danışır Yerevan //** Kommunizm uğrunda.– 1950. – 9 iyul; Şərq qapısı. – 1950. – 29 noyabr.
**35. Koreyadan əl çəkin** // Şərq qapısı. – 1950. – 12 iyul.
**36. Səadət işıqları** // Şərq qapısı. – 1950. – 1 dekabr.
**37. Sülh qələbə çalacaqdır** // Şərq qapısı. – 1950. – 5 noyabr.
**38. Sülh naminə** // Şərq qapısı. – 1950. – 10 sentyabr.

**1951**

**39. Azərbaycan** // Şərq qapısı. – 1951. – 1 may.
**40. Biz sülh istəyirik //** Şərq qapısı. – 1951. – 12 sentyabr.
**41. Danışır Moskva //** Şərq qapısı. – 1951. – 17 avqust.
**42. Günəşimiz //** Şərq qapısı. – 1951. – 16 dekabr.
**43. Minillik arzular həqiqət oldu** // Şərq qapısı. – 1951. – 21 oktyabr
**44. Naxçıvanın səhəri //** Şərq qapısı. – 1951. – 26 oktyabr.
**45. Sülh imzaları** // Şərq qapısı. – 1951. – 2 dekabr.
**46. Sülh qalib gələcəkdir //** Şərq qapısı.- 28 sentyabr.
**47. Sülhün keşiyində** // Şərq qapısı. – 1951. – 23 fevral.

**1952**

**48. İntiqam səsi** // Şərq qapısı. - 1952, - 20 aprel.
**49. Lenin //** Şərq qapısı.- 1952.- 21 yanvar.
**50. Şaxtaçılar //** Şərq qapısı.-1952.- 5 oktyabr.
**51. "Şərq qapısı"nın yeni il arzuları //** Şərq qapısı.-1952.- 1 yanvar.
**52. Yeddi il sonra** // Şərq qapısı.- 1952.- 10 sentyabr.

**1953**

**53. Komsomol //** Şərq qapısı. – 1953. – 30 oktyabr.
**54. Sülh ili** // Şərq qapısı. – 1953. –1 yanvar.
**55. Sülh mahnısı //** Şərq qapısı.- 1953.- 5 dekabr.

**1954**

**56. Keyf əhli //** Şərq qapısı. – 1954. – 15 avqust.

**57. Kəndimizin səhəri** // Ədəbiyyat və incəsənət. – 1954. – 13 fevral.
**58. Qələbə dastanı** // Şərq qapısı. – 1954. – 8 dekabr.
**59. Səs verək** // Şərq qapısı. – 1954. – 14 mart.
**60. Ukrayna //** Şərq qapısı. – 1954. – 23 may.

**1955**

**61. Bir sentyabr** // Şərq qapısı. – 1955. – 2 sentyabr.
**62. Danışır Moskva, Şaxtaçılar, Səadət şəfəqləri, Yeni kənd** / Səadət mahnıları. **–** Bakı: Uşaqgəncnəşr, 1955. – s.6-9.
**63. "Kommunist" qəzetinə //** Şərq qapısı. – 1955. – 20 noyabr.
**64. Kommunizmin dastanı** // Azərbaycan gəncləri. – 1955. – 4 noyabr.
**65. Məzəli bayatılar** // Şərq qapısı. – 1955. – 2 noyabr.
**66. Tarlada bahar** / Gəncliyin səsi. Gənc yazıçıların şeir və hekayələri. Tərtib edəni N.Babayev. Bakı: Uşaqgəncnəşr, 1955, s.78-79.
**67. Vətənimin səhəri //** Şərq qapısı. – 1955. – 4 noyabr.

**1956**

**68. Bahar duyğuları //** Şərq qapısı. – 1956. – 5 may
**69. Ferma müdiri Peysərov** // Şərq qapısı. – 1956. – 2 sentyabr.

**1957**

**70. Arpa çayı sahilində, Gözlərin, Təzə redaktor** // Azərbaycan.- 1957.- № 1.- s.165-166.
**71. Dağlar, Lalə //** Şərq qapısı. – 1957. – 23 iyun.
**72. Xoş gəlir //** Şərq qapısı. – 1957. – 31 may.
**73. Kəklik** // Şərq qapısı.- 1957.- 15 noyabr.
**74. Qələbə rapotu** // Şərq qapısı. – 1957. – 1 yanvar.
**75. May səhəri //** Şərq qapısı. – 1957. – 1 may.
**76. Naxçıvan //** Şərq qapısı. – 1957. – 22 sentyabr.
**77. Ölməz qəhrəman //** Şərq qapısı. – 1957. – 17 aprel.
**78. "Şərq qapısı" nın yeni il arzuları** // Şərq qapısı.- 1957.- 1 yanvar.

**79. Üç bayatı** // Şərq qapısı.- 1957.- 11 avqust.
**80. Yaylaq duyğuları** // Şərq qapısı. – 1957. – 6 sentyabr.

**1958**

**81. Ana məhəbbəti** // Şərq qapısı.- 1958.- 14 may.
**82. Dan ulduzu** // Şərq qapısı.- 1958.- 5 dekabr.
**83. Gəlin şeir deyək** // Şərq qapısı. – 1958. – 9 sentyabr.
**84. İşıq seli** // Şərq qapısı. – 1958. – 15 mart.
**85. Qəzəl (M.Füzuliyə nəzirə)** // Ordubad işçisi.- 1958.- 10 dekabr.
**86. Mənim şeirim, Qəzəl, Bulaq başı** // Şərq qapısı. – 1958. – 28 oktyabr.
**87. Musiqi şəlaləsi** // Ədəbiyyat və incəsənət.- 1958.- 29 noyabr.
**88. Sənət abidəsi** // Şərq qapısı. – 1958. – 17 aprel.
**89. "Şərq qapısı"nın yeni il arzuları (şarjlar)** // Şərq qapısı.- 1958.- 1 yanvar.
**90. Yaylaqda** // Azərbaycan.- 1958.- № 5.- s.168.

**1959**

**91. Ana** // Şərq qapısı. – 1959. – 10 iyul; Tər çiçəklər (almanax). – Bakı: Uşaqgəncnəşr, 1959. –s.28.
**92. May səhəri** // Şərq qapısı. – 1959. – 1 may.
**93. Yeni il tribunamız**// Şərq qapısı. – 1959. – 1 yanvar.
**94. Yüksələn diyar** // Şərq qapısı. – 1959. – 1 oktyabr.

**1960**

**95. Mən al rəngi sevirəm, İlk görüşümüz** // Şərq qapısı. – 1960. – 13 mart.
**96. Ordubad** // Ədəbiyyat və incəsənət.- 1960.- 13 avqust.
**97. Ritsa gölü, Təzə əklil, Rustavi, Bizim Bakı** // Şərq qapısı. – 1960. – 30 dekabr.
**98. Sahildə, Qara dəniz, Mən səni görürəm** // Şərq qapısı. – 1960. – 21 avqust.
**99. Şahbuz** // Azərbaycan gəncləri.- 1960.- 12 avqust.
**100. Şahbuz, Bağlıyam, Arzu** // Şərq qapısı. – 1960. – 16 iyun.

**101. "Şərq qapısı"nın xitabət kürsüsü (şarjlar)** // Şərq qapısı. – 1960. – 1 yanvar.
**102. Naxçıvan** // Azərbaycan.- № 2.- 65; Pioner. – 1960, - № 11, s.6-7.

**1961**

**103. Bərabərlik** // Şərq qapısı. – 1961. – 4 dekabr.
**104. Dalğalar, Palma, Mən səni görürəm** // Ədəbiyyat və incəsənət. – 1961. – 28 yanvar.
**105. Naqafil qonaq (novella)** // Şərq qapısı. – 1961. – 16 mart.
**106. Oyaq qalmaq istəyirəm** // Şərq qapısı. – 1961. – 12 fevral.
**107. Şaxta babanın yanında qəbul (dostluq şarjı)** // Şərq qapısı. – 1961. – 1 yanvar.
**108. Şeir yazmaq istəsən** // Şərq qapısı. – 1961. – 24 dekabr.

**1962**

**109. Düzü düz, əyrini əyri (satira)** // Şərq qapısı.- 1962.- 7 yanvar.
**110. Qardaşlar //** Şərq qapısı. – 1962. – 27 oktyabr.
**111. "Pravda" qəzetinə //** Şərq qapısı. – 1962. – 5 may.
**112. Şaxta babanın vəsiyyəti //** Şərq qapısı. – 1962. – 1 yanvar.
**113. Təzə əklil, Səbuhi //** Sovet kəndi.- 1962.- 27 oktyabr.
**114. Zəfər bayrağı**// Şərq qapısı. – 1962. – 17 oktyabr.
**115. Zəhmət eşqi, Təvazökarlıq, Naxçıvandadır** // Şərq qapısı. – 1962. – 28 sentyabr.

**1963**

**116. Bizim Bakı** // Sovet Gürcüstanı .- 1963.- 5 noyabr.
**117. Deyirsən ki, rəssamam //** Şərq qapısı. – 1963. – 31 mart.
**118. Qəlbim, Məktəb, Bilmirəm** // Şərq qapısı.- 1963.- 29 dekabr.
**119. Qucaqlar sizi //** Şərq qapısı. – 1963. – 25 iyun.
**120. Sinəm qabarır mənim, Bahar, Körpələr, Zəfər yolu** // Şərq qapısı. – 1963. – 9 may.

**1964**

**121. Mənim muxtar respublikam** //Azərbaycan pioneri. –

1964, - 20 oktyabr.
**122. Əkbər** // Şərq qapısı. – 1964. – 9 may.
**123. Lermantov haqqında nəğmələr: Yada düşürsən, Birinci güllə, Buludlar, Aşıq Qəqib //** Şərq qapısı. – 1964. – 30 sentyabr.
**124. Mənim azad Naxçıvanım** // Kommunist. – 1964. – 17 oktyabr.
**125. Mənim muxtar respublikam** // Kirovabad kommunisti. – 1964. – 15 oktyabr.
**126. Naxçıvan, Danışır Moskva, Şeir yazmaq istəsən /** Araz üstə şəfəq. – Bakı: Azərnəşr, 1964, - s.7-9
**127. Satirik etüdlər: Bir yerdə içənlər, Yaxşı adam, Özünüz bilin (nəsr)** // Şərq qapısı.- 1964.- 19 fevral.

**1965**

**128. Babanın ziyafəti, razılığı, töhməti** // Şərq qapısı. – 1965. – 1 yanvar.
**129. Batabat, Məqbərə** // Azərbaycan pioneri. – 1965. – 18 iyun.
**130. Gətirmişəm** // Şərq qapısı. – 1965. – 13 iyun; Ədəbiyyat və incəsənət. – 1965. – 12 iyun.
**131. Hədiyyə** // Şərq qapısı, -1965, - 23 dekabr; Azərbaycan. – 1966. - № 10. – s.75.
**132. Oyanmış torpaq** // Şərq qapısı. – 1965. – 15 aprel.
**133. Sazdır mənim indi işim //** Kirpi.- 1965.- № 23.- s. 7.
**134. Sinəm qabarır mənim, Bahar, Körpələr** // Şərq qapısı. – 1965. – 31 mart.
**135. Yollar, Dobrının meydanı, Tretyakov qalereyası, Meşələr** // Şərq qapısı. – 1965. – 13 noyabr.

**1966**

**136. Ana bir köynək yudu //**Azərbaycan.- 1966.- № 10, s.75.
**137. Həyat yollarında, Lənkəran //** Lenінçı.- 1966.- 13 avqust.
**138. Qaradağ silsiləsi, Qardaşlıq məzarı** // Şərq qapısı. – 1966. – 16 sentyabr.

**139. Qələbə yollarında** // Şərq qapısı. – 1966. – 2 noyabr.
**140. Mənim muxtar respublikam, Yada düşürsən, Payız, Mirzə Cəlil, Ömür /** Əlvan çiçəklər. – Bakı: Azərnəşr, 1966. – s.12-22.
**141. Mirzə Cəlil, Arzular** // Şərq qapısı. – 1966. – 15 may.
**142. Naxçıvan səs verir** // Şərq qapısı. – 1966. – 12 iyun.
**143. Şaxta babanın sərgisi //** Şərq qapısı. – 1966. – 1 yanvar.
**144. Tüfəng səsi** // Ədəbiyyat və incəsənət. – 1966. – 10 sentyabr.
**145. Yazma, dostum //** Şərq qapısı. – 1966. – 25 dekabr.

**1967**

**146. Dunay sahilində** // Şərq qapısı. – 1967. – 18 may.
**147. Ən gözəl arzularla** // Şərq qapısı. – 1967. – 1 yanvar.
**148. Fuçikin məzarı. Qanlı torpaq** // Şərq qapısı. – 1967. – 18 may; Ədəbiyyat və incəsənət. – 1967. – 29 iyul.
**149. İşıqlı kəhkəşanında** // Şərq qapısı. – 1967. – 12 iyun.
**150. Müxbir, Mən milis nəfəriyəm, Dalğalar** // Şərq qapısı. – 1967. – 6 mart.
**151.Pambıqçı qız, Afrika, Kamançanın, Prometey** // "Şərq qapısı". – 1967. – 29 sentyabr.
**152. Petefi körpüsü, Gül topaları** // Ədəbiyyat və incəsənət. – 1967. – 21 oktyabr.
**153. Səsləşən dağlar** // Ulduz. – 1967. №12. – s. 50; Şərq qapısı. – 1967. – 11 noyabr; Bakı. – 1970. – 16 mart.

**1968**

**154. El büsatı** // Şərq qapısı. – 1968. – 1 may.
**155. Fraqmentlər (nəsr)** // Ulduz.- 1968.- № 11.- s.41.
**156. Futbol qəzəlləri** // İdman. – 1968. – 30 mart.
**157. Qaradağ silsiləsi** // Ədəbiyyat və incəsənət. – 1968. – 16 noyabr.
**158. Praqa zəngləri** // Azərbaycan. – 1968. - № 6. – s. 167.
**159. Səsləşən dağlar, Gətirmişəm, Hədiyyə /** Naxçıvan nəğmələri (almanax). – Bakı: Azərnəşr, 1968. – s.48-53.

**160. Vətən, Dübəndi çayı, Əlengəz dağı, Çinar** // Şərq qapısı. – 1968. – 27 oktyabr.
**161. Yeni il şarjları //** Şərq qapısı. – 1968. – 1 yanvar.
**162. Zəfər yolçuları** // Şərq qapısı. – 1968. – 20 sentyabr.

**1969**

**163. Bahar** // Şərq qapısı. – 1969. 21 mart.
**164. Krım şeirləri: Uçan su, Əlvan fişənglər, Dalğalar //** Azərbaycan, -1969, - № 2, s.70-71.
**165. Qanadlı nəğmələr** // Şərq qapısı. – 1969. – 27 aprel.
**166. Sevastopol yolları, Naximov meydanı** // Ədəbiyyat və incəsənət. – 1969. – 8 fevral.
**167. Şöhrət anketi** // Şərq qapısı. – 1969. – 11 noyabr.
**168. Uçan su** // Bakı. – 1969. – 12 mart.
**169. Vətən //** 1969-cu il üçün divar təqvimi. Bakı. 20 oktyabr, Kommunist.- 9 fevral.- 1984.

**1970**

**170. Ana torpaq** // Şərq qapısı. – 1970. – 2 oktyabr.
**171. Arzular** // Şərq qapısı. – 1970. – 31 dekabr.
**172. Baharın rəngləri, Qəzəl** // Ədəbiyyat və incəsənət. – 1970. – 14 mart.
**173. Ələngəzin, Dübəndi çayı** // Azərbaycan pioneri. – 1970. – 15 mart; Yeni Ordubad.- 1967.- 17 dekabr.
**174. Gəlin köçən qızlara, Səidə, Fuçikin məzarı** // Azərbaycan.–1970. - № 3.– s. 5-6.
**175. Müxbir** // Müxbir. – 1970. - № 1. s.2; Divar üçün təqvim. Bakı, 1971.- 4 may; Yeni Ordubad.- 1971.- 5 may.
**176. Sahildə, Badam ağacı, Su pərisi, Qaiıq, Qağayılar** // Şərq qapısı. – 1970. – 24 yanvar.
**177. Şaxta babanın teleqramları** // Şərq qapısı. – 1970. – 1 yanvar.

**1971**

**178. Bayramın mübarək** // Şərq qapısı. – 1971. – 26 mart.
**179. Bir şəhər tanıyıram** // Şərq qapısı. – 1971. – 1 iyun.

**180. Kommunistlər //** "Şərq qapısı". – 1971. – 10 mart.
**181. Kommunistlər, Alışan gözlərə, Oğrun baxışların** // Ulduz. – 1971. - № 8. – s. 52.
**182. Mənzum şarjlar** //"Şərq qapısı". – 1971. – 1 yanvar.

**1972**

**183. Ana Volqa, İlk görüş, Bir eşqin qanadında, Birinci otaqda, Qlobus, Şahmat** // Şərq qapısı. – 1972. – 13 iyul.
**184. Aşıqlar ustası** // Şərq qapısı. – 1972. – 9 iyun.
**185. Fırtına, Gəlin köçən qızlara, Uçan su, Musa Cəlilin heykəli önündə** / Odlu ürəklər (almanax). – Bakı: Azərnəşr, 1972. – s.11-15.
**186. İllər** // Şərq qapısı. – 1972. – 1 yanvar.
**187. Qələbə romantikası //** Şərq qapısı. – 1972. – 11 noyabr.
**188. Naximov meydanı, Sevostopol yolları** // Azərbaycan. – 1972. - № 5. – s.137-138.
**189. Pambıqçılar** // Şərq qapısı. – 1972. – 14 noyabr.
**190. Sarsılmaz ittifaq** // Şərq qapısı. – 1972. – 30 dekabr.
**191. Ulyanovsk** // Ədəbiyyat və incəsənət. – 1972. – 1 aprel.
**192. Ulyayuvsk təəssüfartı: Doğma şəhər, Ana Volqa, Bir eşqin qanadında, Birinci otaq** // Azərbaycan. – 1972. - № 8. – s. 41-42.
**193. Yarım əsrin güzgüsü (mənsur şeir) //** Şərq qapısı. – 1972. – 14 yanvar.

**1973**

**194. Ana məhəbbəti, Dil deyəni ürək demir, Uğurlu yollarınız, Sevirəm deyəndə** //Azərbaycan qadını. – 1973. - № 9. – s. 11.
**195. Dostluq şarjları //** Şərq qapısı.- 1973.- 1 yanvar.
**196. Duz dağı. Salvartı** // Ulduz. – 1973. - № 11. – s. 8-9.
**197. Əlincə qalası. Salvartı yaylağı** // Ədəbiyyat və incəsənət. – 1973. – 6 oktyabr.
**198. Ən böyük abidə, Ondan ayrılarkən** // Şərq qapısı. – 1973. – 22 aprel.
**199. Qonçarov küçəsi, Kitab sarayı** // Ədəbiyyat və incəsənət.

– 1973. – 26 may. – s. 6.
**200. Sahildə** // Ulduz. – 1973. - № 4. – s.8.
**201. Şairlərə, Dostluq** // Şərq qapısı. – 1973. – 6 iyun.

**1974**

**202. Badamlı** // Azərbaycan pioneri.- 1974.- 4 oktyabr.
**203. Dağlarda dəniz, Ordubada gəlin, İlanlı dağ, Arpaçay inşaatçılarına** // Şərq qapısı. – 1974. – 28 iyul.
**204. Doğma torpaq //** Ədəbiyyat və incəsənət. – 1974, - 9 fevral,
**205. Dostluq şarjları //** Şərq qapısı. – 1974. – 1 yanvar.
**206. Döğma şəhər** // Kommunist. – 1974. – 10 avqust.
**207. Duz dağı, Araz üstündə mayak** // Kirovabad kommunisti.- 1974.- 12 sentyabr.
**208. Gəncləşən diyar** // Kommunist. – 1974. – 22 sentyabr; Azərbaycan qadını.- 1975.- № 9, s.2.
**209. Hədiyyə //** Bakı.- 1974.- 23 sentyabr.
**210. İlanlı dağ, Gilan çayı** // Azərbaycan pioneri. – 1974. – 14 iyun.
**211. Naxçıvanım, Qlobus, Naximov meydanı, İlk görüş, Divar saatı, Dostluq rəmzi, Sevastopol yolları, Gəncliyim, Gəlin köçən qızlara, Musa Cəlilin heykəli** / Arazın işıqları. –Bakı: Gənclik, 1974. – s.5-18.
**212. Ordubada gəlin** // Azərbaycan müəllimi. – 1974. – 4 oktyabr.
**213. Salvartıda** // Ədəbiyyat və incəsənət. – 1974. – 28 sentyabr.
**214. Sənət bayramı** // Şərq qapısı. – 1974. – 31 may.
**215. Ulyanovski dəftərindən: Qlobus, Həyətdə, Şahmat** // Azərbaycan. – 1974. - № 4. – s. 3-4.

**1975**

**216. Bayram politrası** // Şərq qapısı. – 1975. – 1 may.
**3. Məmmədov N. Ürəyimə ilham gəlir.-** Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1971.Bakı: Yazıçı, 1975.- Müəllifdən H.Raziyə avtoqrafla.

**Siy. 3:**

**4. Tağızadə A. Gözəlliyin sorağında.-** Bakı: Yazıçı, 1975.- Müəllifdən H.Raziyə avtoqrafla.
**5.Mahmudov Z. Səni axtarırıq.-** Bakı: Gənclik, 1977.- Müəllifdən H.Raziyə avtoqrafla.
**6. Naxçıvanlı Ə. Yadına düşəcəyəm.-** Bakı: Gənclik, 1980.- Müəllifdən H.Raziyə avtoqrafla.
**7. Əsgərov M. Dostluq xiyabanı.-** Bakı: Yazışı, 1980.- Müəllifdən H.Raziyə avtoqrafla.
**8. Məftun Ə. Şəfa bulağı.-** Bakı: Yazıçı, 1980.- Müəllifdən

H.Raziyə avtoqrafla.
**9. Səfərov Ş. Ədəbiyyat qüdrətli tərbiyə vasitəsidir.-** Bakı: Maarif, 1981.- Müəllifdən H.Raziyə avtoqrafla.
**10.Cəfərov M. Osman Sarıvəlli və aşıq yaradıcılığı.-** Bakı, 1981.- Müəllifdən H.Raziyə avtoqrafla.
**11.Əbdülov M. Azərbaycan dili üzrə sinifdənxaric işlər.-** Bakı:Maarif, 1982.- Müəllifdən H.Raziyə avtoqrafla.
**12.Səfərov Ş. Azərbaycan ədəbiyyatı və şagirdlərin dünyagörüşünün formalaşdırılması problemləri.-** Bakı: Maarif, 1982.- Müəllifdən H.Raziyə avtoqrafla.
**13.Əfəndizadə Ə. Orfoepiya-orfoepiya-qrammatika lüğəti.-** Bakı: Maarif, 1983.- Müəllifdən H.Raziyə avtoqrafla.
**14.Əsgər M. Sən gəlməyəndə.-** Bakı: Yazıçı, 1984.- Müəllifdən H.Raziyə avtoqrafla.
**15. Razi H. Sahil həsrəti.-** Bakı: Yazışı, 1985.
**16.Axundov A. Axşam düşürdü.-** Bakı: Yazıçı, 1986.- Müəllifdən H.Raziyə avtoqrafla.
**17.Həbib E. Yoluma çıx.-** Bakı: Yazıçı, 1986.- Müəllifdən H.Raziyə avtoqrafla.

### S.Mümtaz adına Azərbaycan Respublika Dövlət Ədəbiyyat və İncəsənət Arxivində H.Raziyə məxsus olan 298 nömrəli şəxsi fondda qorunan ədəbi-bədii materiallar

**siy.1., s.v.1. "Naxçıvan Araz üstə" (poema).-** Makina yazısı.- 1960. 15 v.
**siy.1., s.v.2. "Sahildə", "Qara dəniz", "Mən səni görürəm", "Sinəm qabarır mənim", "Zəfər günü" , Bahar", "Yaylaqda", "Ana", "Payız", "Yada düşürsən", "Zəhmət eşqi" (şeirlər).-** Makina yazısı.- 10 iyul 1960 – 1963.- 19 v.
**siy.1., s.v.3. "Ritsa gölü", "Qardaşlıq məzarı", "Mən milis nəfəriyəm", "Dalğalar", "Tretyakov qalereyasında", "Kəllələr", "Danışır Moskva" (şeirlər).-** Makina yasısı.- 10 iyul1960 – 1966.- 18 v.
**siy.1., s.v.4. "Bizim Bakı", "Günəşdən nigaranam", "Sən şeir oxuyanda", "Prometey", "Mənim gözəlliyim ol" (şeirlər).-** Makina yazısı.- 12 avqust 1960 – 1966.- 21 v.
**siy.1., s.v.5. "Mən al rəngi sevirəm", "Naxçıvandadır", "Deyirsən ki, rəssamam" (şeirlər).-** Makina yazısı.- 1960-1962.- 18 v.
**siy.1., s.v.6. "Təvazökarlıq", "Arzular", Anamın kitabı", "Şeir yazmaq istəsən" (şeirlər).-** Makina yazısı.- 1963 – 2 okiyabr 1966.- 22 v.
**siy.1., s.v.7. "Əkbər", "Gətirmişəm", "Rustavi", "Şahbuz","Musiqi şəlaləsi", "Mil düzü" (şeirlər) .-** Makina yazısı.- 1964-1965.- 27 v.
**siy.1., s.v.8. "Zəfər yolunda", "Meşələr", "Qaradağ silsiləsi", "Körpələr", "Pravda" qəzeti", "Mayak", "Fuçikin məzarı", "Qınama məni" (şeirlər).-** Makina yazısı.- 1965-1967.- 20 v.
**siy.1., s.v.9. "Fəhlə heykəli", "Yollar", "Araz üstə mayak", "Tüfəng səsi" (şeirlər).-** Makina yazısı.- 1965.- 23 v.
**siy.1., s.v.10. "Vyetnamlı qardaşlara", "Baxışlar", "Rübailər", "Hədiyyə", "Kommunizm dastanı" (şeirlər).-** Makina yazısı.- Tarixsiz.- 20 v.

## HÜSEYN RAZİYƏ YAZILAN MƏKTUBLAR

**Filologiya elmləri doktoru, professor Əziz Şərifin məktubları**

*Əziz dostum Hüseyn Razi!*

*Bir ay Krımda istirahət edəndən sonra nəhayət dünən axşam evə qayıtdıq. Mənsiz gələn bir qalaq kağızın içində sənin də iki məktubun var idi. Vaxtında alıb oxuya bilmədiyim üçün çox təəssüf edirəm. Əlbəttə, mən doğma qəzetimiz "Şərq qapısı"nın 50 illiyini diqqətsiz buraxmazdım. Ancaq nə edək ki, gec xəbər tutmuşam. Axı sən bilirsən ki, oktyabr-noyabr aylarını mən hər il Yaltada oluram. Ora xəbər versəydin, hər şey öz yerində olardı. Əgər gec deyilsə, yenə mənə xəbər elə, heç olmasa bir neçə sətir yazıb göndərim. Gecdirsə, əlacımız yoxdur, onda qəzetin 100 illiyində tutarlı bir şey yazaram* ("Şərq qapısı"nın 50 illiyi münasibətilə yubiley nömrəsi 14 yanvar 1972-ci ildə işıq üzü görmüş və həmin nömrədə Ə.Şərifin "Gözünüz aydın" adlı təbrik məktubu dərc edilmişdir – F.X.).

*Bütün redaksiya əməkdaşlarına, bütün naxçıvanlı dostlara, doğma vətənim olan bütün Naxçıvana və onun mərd və vəfalı oğullarına, qızlarına, qocalarına və gənclərinə çox-çox-çox salamım var.*

*Əlini sıxır, həyatda və yaradıcılıqda sənə ilham və müvəffəqiyyətlər arzu edirəm.*

*Hörmətlə Əziz Şərif*
*29.II.1971, Moskva.*

*Əzizim Hüseyn!*

*İstədiyin ürək sözünü* ("Şərq qapısı"nın 50 illiyi münasibətilə yazdığı təbrik məktubuna işarədir – F.X.) *yazıb göndərirəm. Əgər mənim təbrik məktubuma qəzetin səhifələrində yer verilsə, xahiş edirəm, yubiley nömrəsindən bir nüsxə mənə göndərəsən.*

*Bir daha sizin hamınızı təbrik edirəm.*

*Əziz Şərif*
*14.XII.1971, Moskva.*

*Dostum Hüseyn nüəllim!*

*Qəzeti* (C.Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrının 100 illiyi münasibətilə Ə.Şərifin "Eşq olsun" başlıqlı təbrik məktubunun dərc olunduğu "Şərq qapısı" qəzetinin 13 iyun 1987-ci il tarixli nömrəsi nəzərdə tutulur – F.X.) *aldım. Təşəkkürümü qəbul edin.*

*Dostlara salam, əlinizi sıxıram.*

*Hörmətlə Əziz Şərif.*
*19.VII.1987.*

**Xalq yazıçısı Mehdi Hüseynin məktubu**

*Hörmətli Hüseyn Razi yoldaş!*

*"Buludlar arasında" adlı povest kitab şəklində çap olunmaq üçün həcmcə çox kiçikdir. İkinci povestiniz hazır olduqdan sonra billikdə çap edilməsi üçün binagüzarlıq etmək olar.*

*Hörmətlə Azərbaycan*
*Yazıçılar İttifaqının birinci*
*katibi Mehdi Hüseyn.*
*10 fevral 1965.*

**Xalq yazıçısı İlyas Əfəndiyevin məktubu**

*Hörmətli dostum Hüseyn Razi!*

*Məktubuna görə sağ ol. Naxçıvan teatrının 100 illiyi, əlbəttə, bizim bütün mədəniyyətimizin bayramıdır. Arzu edirəm ki, qəzetinizin hazırlayacağı xüsusi nömrə bu bayrama layiq olsun.*

*Sənə və qələm dostlarına müvəffəqiyyət arzulayıram. Qısa bir yazımı da* ("Şərəfli yol" başlıqlı həmin yazı "Şərq qapısı"nın 13 iyun 1987-ci il tarixli nömrəsində dərc olunub – F.X.) *qəzet üçün göndərirəm.*

*Xahiş edirəm qəzet çıxandan sonra bir nüsxə mənə göndərəsən.*

*Dostların hamısna salam-dua.*

*İlyas Əfəndiyev.*
*14.II. 1987.*

**Xalq yazıçısı Mirzə İbrahimovun məktubları**

*Əziz Hüseyn!*

*Vəd etdiyim təbrik sözünü* ("Şərq qapısı"nın 50 illiyi münasibətilə yazılan həmin təbrik sözü "Nurlu mayak" sərlövhəsilə qəzetin 14 yanvar 1972-ci il tarixli nömrəsində dərc olunub – F.X.) *göndərirəm. "Sənin sözün yerə düşüncə düşmənin boynu sınsın"- deyərlər. Çap etsəniz, qəzeti mənə yollamağı unutma. Yoldaşlara və dostlara salam söylə. Yəqin ki, onlar məni unutmayıblar, necə ki mən Naxçıvandakı xoş günləri və xatirələri, yaxşı adamları və dostları unuda bilmirəm.*

*Sizin Mirzə İbrahimov.*
*8.XII.1971, Bakı.*

*Mənim əzizim Hüseyn Razi!*

*Təşəkkür edirəm ki, Naxçıvan teatrının 100 illiyi münasibətilə mənə müraciət etmisən. Mən belə şərəfli yubiley günündə sevincimi sizə bildirməyə bilmirəm. Zənn edirəm bu sevinc və ürəkdən gələn hislər göndərdiyim bir neçə sözdə ifadısini tapmışdır. Onları "Sovet Naxçıvanı"nın səhifələrində görsəm, şad olaram* ("Yaşayın, yaradın" başlıqlı həmin yazı qəzetin 13 iyun 1987-ci il tarixli nömrəsində dərc olunub). *Sənə, yazıçı yoldaşlarına, redaksiya işçilərinə və hamınızın ailəsinə ən yaxşı günlər, aylar, illər arzu edirəm.*

*Sizin Mirzə İbrahimov*
*6.II.1987, Bakı.*

**Yazıçı Əbülhəsən Ələkbərzadənin məktubu**

*Əzizim Hüseyn Razi!*

*Salam. Məktubunu aldım. Sənə təsəlli vermək fikrində deyiləm. Əqilli adamın təsəlliyə ehtiyacı yoxdur. Onlar həmişə özləri özlərinə təsəlli verə bilirlər. Sənin təsəllin sənin istedadın, əsərlərindir.*

*Əzizim, heyf ki, əsərin redaksiyada deyil. Əli ilə* (yazıçı Əli

Vəliyev nəzərdə tutulur – F.X.) *danışdım. O da işi sürətləndirmək fikrindədir. Sən tezliklə əsəri göndər. Əli deyir ki, aprel nömrəsindən çap etməyə başlayacaq. Əsəri tez yolla!* (Söhbət H.Razinin 1960-cı ildə "Azərbaycan" jurnalında dərc olunan "Qartal" povestindən gedir – F.X.).

*Hörmətlə Əbülhəsən.*
*31.I.1959.*

**Yazıçı Salam Qədirzadənin məktubu**

*Hörmətli Hüseyn Razi!*

*Öz məzəli və duzlu yazılarınızla jurnalımızda çıxış etmək istədiyinizə əminik. Elə bizim də arzumuz budur. "Kirpi"nin daha rəngarəng, məzmunlu və gülüşlü olması üçün bizə göndərəcəyiniz yazılara görə indidən Sizə öz minnətdarlığımızı bildirirk.*

*Baş redaktor Salam Qədirzadə.*
*Tarixsiz.*

**Xalq şairi Məmməd Arazın məktubları**

*Hörmətli Razi!*

*Vətən övladlarına salamlar olsun! Məktubuna bir-iki gün gec cavab yazdığıma görə üzr istəyirəm. İşim yaman çoxdur. Kitabınız "Ömür yolları" başlığı altında redaktə olunub qurtarıb. Bu gün Əhməd Cəmil (redaktor) nabora imzalayıb. Əhməd Cəmil Sizə məktub yazmışdı ki, təzə şeir göndərəsiniz* (əgər istəyirsinizsə), *cavab gəlmədi. Əsas xoşumuza gələn kitab Sizinkidir. Kitabların çoxu zəifdir. Nə isə... Biz istəyirdik ki, ayrıca kitabı gedənləri məcmuəyə* (1964-cü ildə Azərnəşrin çap etdiyi "Araz üstə şəfəq" məcmuəsi nəzərdə tutulur – F.X.) *daxil etməyək. Mümkün olmadı. Yaxşı əsərlər tapmadıq. Odur ki, məcmuəni Sizin şerinizlə açırıq.*

*Dost və tanışlara salam deyin.*

*Hörmətlə Məmməd*
*15.I.1964.*

*Hörmətli Razi!*

*Səmimi salamlar olsun Sizə və Araz qırağına!*

*"Həyəcanlı gecə"nin həyəcanından qurtarmaq üçün əsəri bizim şöbənin redaktoru Ədilə xanım oxuyub. Povestdə bir sıra lüzumsuz təfərrüatlar, süjet dağınıqlığı yaradan bəzi ricətlər və s. vardır. Əsər ümumiyyətlə bəyənilir. Əgər yolunuzu buraya sala bilsəniz, bu qeydlərlə tanış olar və inandığınızı düzəldərsiniz və ya da oraya göndərmək lazımdır. 66-cı ilin planında nəzərdə tutmuşuq.*

*Cavab gözləyirəm. Ancaq xahiş edirəm, bizim zəhmətimizi unudub ora-bura xahişnamələr yazmayasan (zarafat və bir qədər də ciddi).*

*Hörmətlə Məmməd İbrahim*
*16.II.1965.*

*Hörmətli Hüseyn!*

*Salamlar olsun. Səməd Vurğuna həsr etdiyim bu yazını sənə göndərirəm. Mərkəzdə çıxanacan sizdə getməsini xahiş edərdim. Necə olduğunu deyə bilmərəm. Bizim dağların birində bir çobanın söhbətindən sonra bu mövzu yarandı.*

*Səməd Vurğunun yubileyi noyabrın ortalarınacan gedəcək. Mən yubiley olmasa da, yəqin ki, bunu yazardım. Böyüklüyü sizi qorxutmasın 300 misraya yaxındır. Elə bilin ki, bir məqaləni verirsiniz. O qədər yer tutmaz* ("Vurğun bulağı" adlı həmin poema "Şərq qapısı" qəzetinin 1976-cı il 6 noyabr tarixli nömrəsində dərc olunmuşdur – F.X.).

*Sənubər xanıma və başqa yoldaşlara salam de.*

*Hörmətlə Məmməd Araz.*
*21.10.1976.*

**Akademik Bəkir Nəbiyevin məktubu**

*Azərbaycan SSR EA-nın prezidenti, akademik E.Y.Salayev yoldaşa göndərdiyiniz poemanı hər ikimiz oxuduq. Onun tapşırığı*

*ilə bu sətirləri Sizə yazıram.*

*Hazırda Akademiyada çalışan elmi işçilərin bir çoxu kimi biz də akademik Y.H.Məmmədəliyevi şəxsən tanıyanlardan, dinləyənlərdən, müşahidə edənlərdən olmuşuq. Əsərinizdə bu nadir alimin, nəcib insanın, yorulmaq bilməyən vətənpərvərin hamı üçün əziz olan obrazının bir çox cizgiləri səmimiyyətlə yaradılmışdır. Xüsusən alimin doğulduğu, boya-başa çatdığı yerlərin, ünsiyyətdə olduğu adamların təsvir edildiyi səhifələr maraqla oxunur.*

*Poemanın adı da onun mahiyyətini əks etdirir. "İnsanlar, tələsin xeyirxahlığa" əsərində Y.H.Məmmədəliyevin xatirəsini bir daha əbədiləşdirmək niyyətinizlə yanaşı Siz, eyni zamanda, oxucuları yüksək insani keyfiyyətlərə daha böyük səylə yiyələnməyə, başqalarına xeyirxahlıq etmək üçün tələsməyə çağırır və bu fikirdəyik ki, ona nail olursunuz.*

*Poemaya əlavə edilmiş məktubdakı xahişə əməl olunmuş, əsər akademik Y.H.Məmmədəliyevin ailəsinə çatdırılmışdır.*

*Sizə yeni yaradıcılıq uğurları arzulayıram.*

*Bəkir Nəbiyev*
*20.X.1987.*

**Azərbaycanın əməkdar incəsənət işçisi, folklorçu Əbülqasım Hüseynzadənin məktubu**

*Nuri-çeşmi-mən Hüseyn Razi müəllim!*

*Salamlar. Məktubunuzu aldım. Mirzə müəllimə yazmağınız üçün çox sağ olun.*

*Xahiş edirəm, mümkün olsa, qəzetinizdən üç nüsxə də göndərəsiz. Kərimovaya iki kitab göndərdim.*

*Xudahafiz.*

*Əbülqasım Hüseynzadə.*
*14.I.1982, Bakı.*

**Xalq şairi Balaş Azəroğlunun məktubu**

*Hörmətli Hüseyn Razi!*

*Salam! Göndərdiyiniz "Sahil həsrəti" poemanızı aldım, oxudum. Özü də həvəslə və diqqətlə oxudum.*

*Mövzu çox müasir və gərəklidir. Hiss olunur ki, Siz onu yazanda nə hissinizi, nə də qəlbinizi qəlibə salmamısınız. Gözəl bəndləri, düşündürən, məntiqi ifadələri saymaq istəmirəm, çünki bunlar çox-çoxdur.*

*Poemada, mənim fikrimcə, düzəldilməsi məsləhət olan bir-iki cəhət vardır ki, onları Sizin nəzərinizə çatdırmaq istəyirəm:*

*1.Əsəri çapa hazırlayarkən İranın və xüsusən Cənubi Azərbaycanın bugünkü vəziyyətini mütləq nəzərə almaq lazımdır. Bəlkə, poemanın bir yerində bu barədə danışasınız?*

*2.Əsərdə bir nəfərin dilindən gedən yerlərdə yeknəsəqlik nəzərə çarpır, oxucunu yorur. Buna görə də əsərdə uzunçuluq hiss edilir.*

*3.Poemada bəzi ifadələrin qarşısında işarə qoymuşam. Bu fikirlər və buna bənzər fikirlərin indi söylənilməsi məqsədəuyğun deyil.*

*Ümumiyyətlə, poema yaxşıdır, çap oluna bilər. İstədiyiniz nəşriyyata təqdim edin.*

*Hörmətlə Azəroğlu.*
*01.IX.1981, Bakı.*

**Filologiya elmləri doktoru, professor Kamal Talıbzadənin məktubu**

*Hörmətli Hüseyn Razi!*

*Salam. Məktubunuzu aldım, Mövzunuzun təsdiqi haqqında soruşursunuz. Mövzu Əlaqələndirmə Şurasında təsdiq edildi* (söhbət namizədlik dissertasiyası kimi H.Razinin adına təsdiq edilən "İrəvanda Azərbaycan ədəbi mühiti" mövzusundan gedir – F.X.). *Mənim verdiyim məlumat yoldaşları razı saldı. Gəldiyiniz zaman ətraflı danışarıq. Məmməd Cəfər müəllim haqqında mə-*

*qaləni Nadir Məmmədova tapşırmışam. Bu günlərdə məqaləni göndərrəm. Hələlik bu qədər. Naxçıvanı görməyə böyüük daxili mənəvi ehtiyac hiss edirəm. Qismət olsa, orada da görüşərik.*

*Bütün dostlara salam yetirməyinizi xahiş edirəm.*

*Kamal Talıbzadə*
*3.XI.1969.*

**Şair Əhməd Cəmilin məktubu**

*Hörmətli Hüseyn Razi!*

*Məktubunu almışam. Məlum olur ki, mənim məktubum çatmayıbdır.*

*Mən Sizin kitab barəsindəki narahatlığınızı başa düşürəm. Lakin nahaq yerə narahat olmayın. Kitab mənə yaxşı təsir bağışladı. Ümid edirəm ki, oxucular da razı qalarlar.*

*Göndərdiyiniz şeirləri və düzəlişləri də kitaba daxil etdik. Kitab mətbəəyə gedibdir. Məncə yubileylə (respublikanın ildönümü ilə) əlaqədar olaraq tez bir vaxtda çapdan çıxar* ("Ömür yolları" adlı həmin kitab 1964-cü ildə Azərnəşr tərəfindən çap olunmuşdur – F.X.).

*Naxçıvan yazıçılarının şer və hekayələr almanaxı da* (Araz üstə şəfəq. Bakı: Azərnəşr, 1964 – F.X.) *Sizin şeirlərinizlə aşılır. O kitab da mətbəədədir.*

*Məndən yoldaşlara salam yetirin.*

*Hörmətlə Əhməd Cəmil.*
*8.II.1964.*

**Xalq şairi Xəlil Rzanın məkrubları**

*Hörmətli dostum!*

*Əvvələn, əllərini sıxıram. İkincisi mənim səmimi salamlarımı bütün redaksiya kollektivinizə və bizi az-çox tanıyanlara yetirməyini xahiş edirəm.*

*Dostum, bu məktubu yazmaqda vacib bir məqsədim var. Xahiş edirəm ki, bu barədə mənə köməyini, zəhmətini əsirgtəməyəsən.*

*Hazırda məni bir məsələ - 1828-ci il Türkmənçay müqaviləsi ilə əlaqədar olaraq Azərbaycanın iki yerə parçalanması məsələsi bərk məşğul etmişdir. Xalqımızın üzərində böyük bir faciə damğası olan bu hadisə vaxtilə Naxçıvanı da az ağlatmamışdır. Hətta bu barədə sizdə əfsanələr yaranmışdır. Məsələn, "Apardı sellər Saranı" əfsanəsi bilavasitə sizin torpaqla bağlıdır.*

*Gedin deyin Xançobana,*
*Gəlməsin bu il Muğana.*
*Muğan batıb nahaq qana,*
*Apardı sellər Saranı*
*Bir ala gözlü balanı.*

*Bu sözlərin əsasında duran dastanı və bu qəbildən olan el rəvayətlərini ətraflı öyrənib, müfəssəl yazıb mənə göndərməyini xahiş edirəm. Onu bil ki, sənin topladığın hər təzə el sözü mənim üçün bir dünyaya bərabər olacaq. Ola bilsin ki, sən bu əhvalatı bilmirsən. Lakin Naxçıvanda belə rəvayətləri bilənlər çoxdur: ağsaqqallar, nənələr, aşıqlar az deyil. Sənin canıyananlığına, həssaslığına sədaqətinə əmin oıduğum üçün bu məktubu məhz sənə göndərdim.*

*Qış tətili vaxtımız bitdi. Bu günlərdə Bakıdan Moskvaya yola düşürük. Yaxşı olardı ki, Moskvada* (həmin vaxt X.Rza Moskvada M.Qorki adına Dünya Ədəbiyyatı İnstitutunun tələbəsi idi – F.X.) *Azərbaycandan aldığım ilk məktub sənin olsun. Qismət olsun bütün zəhmətinin əvəzini çıxmağa çalışaram.*

*Məşkura* (şair Məşkur Əkbər nəzərdə tutulur – F.X.) *salam yetir, bu yazdıqlarımı eynilə ona yetir və de ki, bu məsələ barədə Xəlil səndən də kağız gözləyir.*

*Dostum Nərimandan sizin hamınıza salamlar.*

*Ümidlə sənin Xəlilin.*
*3 fevral 1959.*

*Hörmətli sevgili qardaşımız Hüseyn Razi!*

*Ulusal bilinc (milli şüur) işığına boyanmış gözəl poemandan aldığım dad hələ damağımdadır. Yeni və daha qüdrətli əsərləri*

*gözləyirik.*

*Sənə və Sizə "Dördaçılanlarımı" (rübailərimi) göndərməyi gərəkli saydım. Lazım bilsən hissə-hissə çap etmək olar.*

*Başda Əliheydər Qəmbər olmaqla bütün Naxçıvan aydınlarını (ziyalılarını) ürəkdən salamlayır, redaksiya kollektivinizə, redaktorunuza uğurlar diləyirəm.*

*X.R.Odsevər.*
*Bakı, 26 ocaq (yanvar) 1971.*

*Günaydın Əziz şair!*

*Açıqcanı aldım. Min yaşa! Dünən Pənah Xəlil bildirirdi ki, o tayda faşizm meydan sulayır. Şah İsmayıl Xətayinin məqbərəsini, Şeyx Səfi abidəsini buldozer ilə dağıdır, Ərdəbildə, Təbrizdə və bütün Güney Azərbaycanda Azərbaycan mənliyini təsdiq edən nə varsa, məhv etməyə çalışırlar. Sazmani-əmniyyə Təbrizin yaxınlığındakı Şahgölün yaxasındakı "Aşıq heykəlini" götürüb muzeyə köçürmüşdür. Çünki el, elat bu heykəlin başına toplaşıb azərbaycanca şeir deyir, saz çalır, dərdləşirmiş. Qoy sənin ildırım kəsərli POEZİYAN bütün bu növ qaragüruhçuları damğalasın.*

*Dostlara günaydınlar!*
*Yaşasın Hüseyn Razi poeziyası!*

*Dostun Xəlil Rza.*
*24.III.1977.*

*Günaydın, dostum, qardaşım Hüseyn Razi!*

*Fürsətdən istifadə edib özbək şeiri ilə yanaşı Sana öz yazılarımı da göndərirəm. İmkan olsa, çap edərsiniz zənnindəyəm.*

*Bütün yaradıcılıq uğurlarını alqışlayıram. Balaları öpürəm. Bütün əzizlərinizə salamlar, günaydınlar.*

*Dostun Xəlil Rza.*
*7 may 1979.*

*Qardaşım Hüseyn Razi!*

*Günaydın. "Sahil həsrəti" kitabınızı bildiyiniz kimi mağazadan, satışdan özüm almışam. Bunun səbəbini də məncə yaxşı bilirsən. Sizin milli şüur işığına qərq olmuş ayıq poeziyanıza mənim çoxdan məhəbbətim var. Ancaq bu gün həmin kitab haqqında xüsusi tənqidi məqalə yazmağa macalım yoxdur. Həddindən artıq yüklənmişəm. "Yazıçı" nəşriyyatının builki planında Nizami Gəncəvinin 35 çap vərəqi həcmində kitabı mənə tapşırılıb. "Sirlər xəzinəsi" poeması, lirika nümunələri tərcüməçisi, ön söz, açıqlamalar, yozumlar, tarixi, coğrafi adlar, lüğət müəllifi kimi qələm çalıram. Abdulla Şaiq çevirisində "Şərəfnamə" də buraxılacağından bunu da oxuyub sahmana salmalıyam."Yazıçı" nəşriyyatının tərcümə şöbəsinin müdiri Firuzə xanım, nəşriyyatın baş redaktoru, şairimiz Sabir Rüstəmxanlı hər gün bu işlə ciddi maraqlanır, filologiya elmləri namizədi, alim və şeirbaz Məmmədağa Sultan, filologiya elmləri doktoru Azadə xanım Rüstəmovanın resenziyalarındakı iradları və tənqidi aradan qaldırmağımı tələb edirlər. Buna görə sənə borclu qalıram. Bu sətirləri Türkanda yazıram. Şamaxı rayonunun Avaxıl kəndindən gəlmiş müəllim Bikəs Həsənov qonağımdır. Şamaxının 119 canlı orta texniki peşə məktəbində keçən ilin aprelində tanış olmuşuq. Umur ki, Dadaş Bünyadzadə adına Bakı Gəmitəmiri Zavodunda nişanlayıcı fəhlə işləyən oğlu Füzuli Həsənovun əsgərliyə getməsini sentyabradək təxirə salaq ki, Çingiz İldırım adına Politexnik İnstitutunun maşınqayırma fakültəsinə barı imtahan verə, qəbul oluna bilsin. Bu yandan da Bakının Oktyabr rayon hərbi komissarı... Şamaxıya teleqram göndərib ki, hərbi çağırışa gəlməyən gənc məsuliyyət daşıyır.*

*Bəzən bilə-bilə, göz görə görə,*
*Hər cür xəyanətə girişirik biz.*
*Bir dəmir medala, boş təşəkkürə,*
*Şirin canımızı dəyişirik biz.*

*Bu ilin martın 22-də Lenin adına sarayda yanaşı əyləşib*

*“Babək” baletinə tamaşa etdiyimizi anıram. Sağ ol.*

*Xəlil Rza.*
*Türkan, üçüncü gün, 9 iyul 1986.*

**Xalq şairi Bəxtiyar Vahabzadənin məktubları**

*Salam, əzizim Hüseyn Razi!*

*Göndərdiyin qəzeti aldım. Məqaləni* (H.Razinin B.Vahabzadənin yaradıcılığına həsr etdiyi “Sovet Naxçıvanı” qəzetinin 24 noyabr 1984-cü il tarixli nömrəsində dərc olunan “Yüksək fikirlər poeziyası” adlı məqaləsinə işarədir – F.X.) *oxudum. Ürəklə yazmısan, çox təşəkkür edirəm, zəhmət çəkmisən.*

*Azərbaycanda mən ilk dəfə Naxçıvanda sevilmiş, şair kimi naxçıvanlılar tərəfindən qəbul olunmuşam. Son gəlişimdə də mən bu məhəbbəti hiss etdim. Çox sağ olun. Camaata mənim salamlarımı yetirin. Sizə bir daha təşəkkür edirəm.*

*Hörmətlə Bəxtiyar.*
*4.XII.1984.*

*Hörmətli Hüseyn, salam!*

*“Sovet Naxçıvanı”nda çıxan məqaləni* (“Fikirlərin üsyanı” məqaləsi, 25 iyul 1986 – F.X.) *və kitabını* (Sahil həsrəti. Bakı: Yazıçı 1985 – F.X.) *oxudum. Hər ikisinə görə çox sağ ol. Məqalədən aydın olur ki, “Fəryad”ın fəryadı sənin də ürəyində əks-sədasını tapıb.*

*“Keçəl Həmzə” misilsiz dərəcədə gözəl şeirdir. Dərdimizin ifadəsidir.*

*Keçəl Həmzə bəyin qəbul günündə,*
*Dəlilər qəbula durmuş növbədə.*
*Baxın kimlər durub kimin önündə,*
*Rəis stulunda oturmuş gədə.*

*O zaman başımıza kül olub ki, dəlilər dəliliyindən çıxıb müasir havaya uyğunlaşıblar. Koroğlunun, Giziroğlunun başında şapka, boynunda qalstuk gördüyümüz gün evimiz yıxılıb. Nə*

*isə... Bu şeirə görə çox sağ ol.*

*Poemada ("Sahil həsrəti") fikirlər çox gözəldir. Lakin bu fikirlərin deyilməsi üçün tapılan forma (qocanın dilindən) qeyri-təbiidir, inandırmır.*

*Sənə daha böyük uğurlar arzulayıram.*

*Dərin hörmətlə Bəxtiyar.*
*3.VII.1986.*

**Şair Qabil İmamverdiyevin məktubu**

*Hüseyn Razi yoldaş, salam, təzə iliniz mübarək!*

*"Ədəbiyyat və incəsənət"in son nömrəsindəki* (8 yanvar 1988 – F.X.) *"Alqış", "Yarımhəqiqət" və "Gələrsən" adlı şeirlərinizin üçü də qeydsiz-şərtsiz xoşuma gəldi. "Xoşuma gəldi" azdır, məni tərpətdi.*

*"Xəyali bağlardan bar dərə-dərə"... "Şikəst uşaq kimi iməklədikcə"... "Xaçına and içən bir keşiş kimi, Özün inanmırsan dediklərinə".*

*"Yaman şişdir ürəkdəki dumanlıq,*
*Ömür boyu unudulmur yamanlıq,*
*Heç olmasa, o dünyada bir anlıq,*
*Həqiqətin səcdəsinə gələrsən".*

*Hər adam fikir deyə bilər, şeir deyə bilməz. Siz şeir demisiniz. Canlı, təbii, ehtiraslı, hər şeyi – bütün poetik nöqtələri yerli-yerində, motivi də ki, aydın. Xüsusilə dilə, ifadəyə, konkretliyə, aydınlığa, rəvanlığa biganəlik, naşılıq hökm sürdüyü bir vaxtda Sizin şeirləriniz xüsusi boy göstərir, həmin nömrədəki şeirlərdən çox parlaqdır.*

*Salamat qalın, susa bilməzdim.*

*Qabil.*
*8.I.1988*

**Şair Tacəddin Şahdağlının məktubu**

*Hörmətli Hüseyn müəllim!*

*Səmimi salamlar. Sizə bu məktubu yazmağımın ən birinci səbəbi "Ömür" adlı şeirinizdir. Çox gözəl yazılmış bu şeir məni məftun eydi:*

*Nə vaxt ki, zəhmətlə günlər ötüşür,*
*Ömürdən ömürlər üstə gün düşür.*
*Rütbə kəndirbazı bir gün sürüşür,*
*Kosası bir yana, özü bir yana.*

*Gəzəldir, şairanədir, ürəyəyatandır.*

*Digər tərəfdən:*

*Pudur üzərriyi bədnəfəslərin,*
*Əlacı karlıqdır kobud səslərin,*
*Beyni mədəsində olan kəslərin,*
*Sözü bir yanadır, gözü bir yana.*

*Daha sözüm yoxdur. Şeir bütün redaksiya işçilərinin xoşuna gəlmişdir. Onu əzbərləyənlər də vardır. Sizə yeni müvəffəqiyyətlər arzulayıram. Əla şeirlərdən çox yazasınız... Xudahafiz.*

*Hörmətlə, icazənizlə Sizin*

*Tacəddin Şahdağlı.*
*22.IX.1966.*

**Şair Sabir Rüstəmxanlının məktubu**

*Hörmətli Hüseyn müəllim!*

*Məktublarınızı aldım. "Azərbaycan" jurnalındakı yazım haqqındakı* (söhbət məktub müəllifinin "Azərbaycan" jurnalının 1988-ciu il 2-ci nömrəsində dərc olunan "Ömür yolu" adlı yazısından gedir – F.X.) xo*ş sözlərinizə görə minnətdaram. Sağ olun ki, oxuyub fikrinizi yazmısınız.*

*İkinci məktubunuz məni pərt elədi. Çünki əməkdaşlarımızın hazırladığı məktuba qol çəkmişəm, lakin işin təfərrüatını mənə deməyiblər. Məktublarla bağlı hər şeyi soruşub yoxlamağa bəzən imkan olmur. Cavabın belə gec verilməsi hamımızın səhlənkarlığı*

*üzündəndir. Məni arxayın salıb illərlə müəlliflərimizi nigaran, cavabsız qoymaları bizim redaksiyalarımızın təcrübəsində birinci hadisə deyil.*

*Kitabınızın taleyini həll edib Sizə əlavə məktub yazaram.*

*Sağ olun.*

*Sizə can sağlığı arzusu ilə Sabir Rüstəmxanlı.*
*5.05.1988.*

**Şair-tərcüməçi Şamil Zamanın məktubu**

*Hörmətli Hüseyn müəllim!*

*"Arxalı dağlar" pyesinin oynanılması münasibətilə Sizi qəlbən təbrik edir, öpürəm!*

*Bu yaxınlarda Bakı radiosu ilə "Tusi" haqqında danışırdınız. Evdə hamımız qulaq asırdıq. Hüseyn müəllim, mənə elə gəlir ki, "Tusi" indiyə qədər yazdığınız bütün səhnə əsərlərindən. "Odlu diyar"dan da güclü olacaqdır. Bir sözlə, onu Sizin şah əsəriniz kimi indidən öz xəyalımda canlandırıram. ..*

*"Səsləşən dağlar" şeirlər kitabınız da çapdan çıxıbdır. Bu yaxınlarda bir neçəsini alıb Sizə göndərəcəyəm...*

*Hörmətlə Sizin Şamil Zaman.*
*3 mart 1971, Bakı.*

**Filologiya elmləri doktoru, professor**
**Teymur Əhmədovun məktubları**

*Əzizim Razi!*

*Salam. Mehriban ailənə və səni ürəkdən istəyən bütün doslara salamlar.*

*Təbrik məktubunu aldım, təşəkkür edirəm.*

*Sənin səsini radioda eşitdim. Orijinal reportajına qulaq asdım.*

*Yeni ildə hamınıza cansağlığı və müvəffəqiyyətlər arzulayıram.*

*Razi, əzizim, səni unutmamışıq, müəyyən səbəblər üzündən*

*o məsələyə baxılmamışdır. Yaxın günlərdə həll olunacaqdır.*

*Mən sənə bir avtoreferat göndərirəm. Xahişim odur ki, onu Arif Əliyevə ver. İnstitutdan bir rəy yazıb göndərsinlər. Vaxtın olsa, özün də oxu. Maraqlı məsələdir...*

*Ehtiramla Sizin Teymur Əhmədov.*
*20.I.1971.*

*Əzizim Hüseyn Razi!*

*Səmimi salam. Yeni ilin də mübarək! Hamımız mehriban ailə üzvlərinə möhkəm cansağlığı və könül xoşluğu arzulayırıq. Güman edirəm ki... özünə məxsus şux vəziyyətdəsən, Kəpəz dağı kimi.*

*Sən özün ənənə yaratdın, amma kitabını göndərmədin. Mənsə yeni kitabımı* (Dostluq duyğuları. Bakı: Yazıçı, 1979 – F.X.) *sənə yeni il münasibəti ilə göndərməyi vacib bildim.*

*Dərin hörmətlə Sizin Teymur Əhmədov.*
*20.XII.1979, Bakı.*

**Şair Ramiz Heydərin məktubu**

*Əzizim, Hüseyn Razi,*
*Xoşun gəlsə əgər*
*Göndərdiyim bu yazı*
*Qəzetdə çap olunsun,*
*Olum mən səndən razı,*
*Həm də sən məndən razı...*

*Hüseyncan, heç ürəyini sıxma. Göstərilən qeydləri nəzərə alıb pyesə* (H.Razinin "Günəş" pyesi nəzərdə tutulur – F.X.) *bir qədər əl gəzdir, sentyabrın 20-nə şəxsən göndər mənə...*

*Öpürəm, qardaşın Ramiz.*
*1967.*

**Şair Əbülfəz Naxçıvanlının məktubu**

*Hörmətli məktub!*

*Əvvəla, salamlar... Hüseyn müəllim, Sizi narahat etdiyim üçün çox-çox üzr istəyirəm. Hüseyn müəllim, əlbəttə, mən Sizə məktub yazmaqla düz iş görmürəm. Çünki redaksiyaya şeir göndərərkən mən heç zaman məktub yazmamışam. Ancaq Sizi bir ustad kimi, bir hörmətli sənətkarımız kimi, öz yaradıcılığı ilə məni şeir aləminə gətirən bir şair kimi daimi sevir və yaradıcılığınıza hüsn-rəğbət bəsləyirəm. Hüseyn müəllim, mən bu il "Arzular gül bitirir" adlı şeir kitabçamı "Gənclik" nəşriyyatına təqdim etdim. İlk irihəcmli əsərim olan "Leninin şəkli" poemamı Sizə göndərib Sizdən məsləhət istəyirəm və çox-çox xahiş edirəm ki, məni yaradıcılığa daha da ilhamlandırmaq üçün çalışıb aprelin 22-də sizin qəzetinizdə çap olunmasına köməklik göstərəsiniz.*

*Mən 1965-ci ildə 7 nömrəli orta məktəbin IX sinfində oxuyarkən sizinlə, daha doğrusu, şairlərlə görüş keçirilirdi. Siz "Naxçıvandadır" qoşmanızı oxudunuz. O qoşma mənə o qədər təsir etdi ki, məni yaradıcılıq yollarına atdı. İndi böyük arzum budur ki, məni ilk dəfə poeziya aləminə sövq edən bir ustad kimi bu ilk poemamın çap olunması üçün də köməklik göstərəsiniz. Mən daima Sizə minnətdar olaram. Hüseyn müəllim, uzun-uzadı məktub yazıb başınızı ağrıtdığım üçün bağışlayın.*

*Sizi narahat edən Əbülfəz.*

*13.IV. 1964.*

**Şair Tofiq Mahmudun məktubu**

*Əziz Hüseyn!*

*Salam. Gec də olsa, əməkdar incəsənət xadimi fəxri adını ürəkdən təbrik edirəm. İkinci, ananın vəfatı münasibətilə kədərləndiyimi bildirir, başsağlığı verirəm. Üçüncü, 60 yaşının tamam olmasını alqışlayıram, sənə yeni yaradıcılıq qüvvəsi arzulayıram. Məqaləm* (T.Mahmudun "Ədəbiyyat və incəsənət" qəzetinin 7

dekabr 1984-cü il nömrəsində dərc olunan "Ömür yolu" adlı məqaləsinə işarə olunur – F.X.) *xoşuna gəldimi? İxtisarla getmişdi. Nəsr yaradıcılığın haqqında tamam ixtisar olunmuşdu. Ən nəhayət, Bəhruz Kəngərli haqqındakı povestimlə əlaqədar bir xəbər bilmək istəyirəm. Qorxma, həqiqəti yaz! Ödəmək istəmirlərsə, eybi yoxdur, mənə bildir!*

*Hər şey yaxşıdır. Sənə müvəffəqiyyətlər arzulayıram.*

*Hörmət və məhəbbətlə Tofiq Mahmud.*

*7.VI.1985.*

**Yazıçı-tərcüməçi, SSRİ Ədəbi Fondu Azərbaycan filialının sədri Əli Səbrinin məktubu**

*Hüseyn müəllim!*

*Məktubunuzu aldım. Manaf sizə cavab yazıb. Dünən iclasda Sizə yol vərəqəsi (putyofka) haqqında qərqr çıxarıldı. Çox təəssüf ki, özünüz "güzəştlə" yazmışdınız. Aləmə pulsuz verildiyi halda, sənin kimi tanınmış şairə nə üçün 100% ilə verilməsin? Bu, özünüzün özünüzə qiymət verməmənizdir. Əvvəlcə ərizəni mənə nə üçün göstərmədiniz? Mən "güzəşt" sözünün üstündən bir xətt çəkərdim. Gələcəkdə belə bir səhvə yol verməyin. İndi isə "özü yıxılan ağlamaz",- deyiblər.*

*Hörmətlə Əli Səbri.*

*6.VIII.1971.*

**Oxucu Əmir Hüseynovun məktubu**

*Elimizin doğma oğlu şair Hüseyn Raziyə!*

*Qocaman Naxçıvan elinin solmaz, adı dillər əzbəri, qoxusu bahar çiçəkləri – bənövşə, nərgiztək ətirli, qızıl gül çöhrəli, çörəktək bərəkətli, torpaqtək min bir sərvətli, Babəktək şücaətli, şöhrətli, qeyrətli, uca dağlartək çənli-dumanlı Hüseyn Raziyə uzaq-uzaq ellərdən – Nizami yurdundan, Məhsəti elindən salamlar olsun.*

*Mən ulu Şahbuzun ucqar kəndlərindən biri olan Gecəzur*

(indiki Ağbulaq – F.X.) *kəndində yaşayıram. İndi Azərbaycan Kənd Təsərrüfatı İnstitutunda oxuyuram. Yəqin ki, deyəcəksiniz bu xarakteristika nəyə lazımdır. Lakin bunu deməklə Sizin nəzərinizə çatdırıram ki, mən Sizinlə əyani tanışam. Çünki Siz bizə gəlmişdiniz. Orada mənim şeirlərimi dinlədiniz və mənə ağıllı məsləhətlər verdiniz, düzgün yollar göstərdiniz. Mən indi o yolların, məsləhətlərin təzə-təzə barın görürəm. Sizə öz minnətdarlığımı bildirirəm. Sizə həyatda uzun ömür, yaradıcılığınızda müvəffəqiyyətlər arzu edirəm. Sizdən bir xahişim var. Yeni yazdığınız şeirlərdən və bir ədəd fotoşəklinizi bizə göndərəsiniz. Albomda Sizin şəkliniz üçün xüsusi yer ayırmışam.*

*Hörmətlə Əmir Hüseynov.*
*Tarixsiz.*

**Oxucu Əliqulu Coşğunun məktubu**

*Hörmətli Hüseyn müəllim!*

*Qəzetinizin 23 may tarixli nömrəsində "Naxçıvan" adlı şeirimi dərc etdiyiniz üçün Sizə ürəkdən təşəkkür edir və öz minnətdarlıəımı bildirirəm:*

*Sənət həsrətilə vuran ürəklər,*
*Səmimi qəlb ilə salamlar sizi.*
*Adınız dillərdə olmuşdur əzbər,*
*Tanıyır yaxınlar, uzaqlar sizi.*

*Biliniz ki, sizə, böyük sənətkar!*
*Bizim hər bir zaman hörmətimiz var.*
*Doğma vətənindən uzaq olanlar,*
*Unutmaz, hər zaman arzular sizi.*

*Şöhrətiniz yayılmışdır hər yana,*
*Siz bir yaraşıqsız bu Naxçıvana.*
*Əsərləriz fərəh verir insana,*
*Zəmanə etmişdir bəxtiyar sizi.*

*Daşlı-qayalıdır sənət yolları,*
*Coşğunun keçməyə çatmır vüqarı.*
*Bir məsləhət verin siz ona barı,*
*Axı qorxutmamış bu yollar sizi.*

*Hörmətlə Əliqulu Coşğun.*
*29.V.1967.*

**Oxucu Pirqulu Pirquluyevin məktubu**

*Mənim hörmətli dostum Hüseyn Razi!*

*Əsgəri salamlarımı, qəlbimin dərin duyğularından gülab ətri qəbul edin! Sizə minnətdaram.*

*9 may 1968-ci il "Şərq qapısı" qəzetini aldım. Nəşr olunan şeirimi oxudum. Deməli, mənim şeirim ilk dəfə nəşr edildi. Bunu Siz etdiniz. Mənim qəlbimin məmnuniyyətinin hədsiz nubar meyvə qədər meyxoş olduğunu təsəvvür edin. Bu günə qədər məni heç kəs bu qədər sevindirməmişdi.*

*Sizə, ailənizə şadlıq, xoş həyat, sağlamlıq, uzun illər ömür sürmək və daimi müvəffəqiyyətlər arzu edirəm...*

*Sizin Pirqulu.*
*19 may 1968, Suxumi.*

**Təbrizli oxucu Süleyman Salisin məktubu**

*Hörmətli ustadım, əziz qardaşım Hüseyn Razi!*

*Səmimi salamlarla Sizi öpürəm. Sizə həmişə uzun ömür, şirin həyat və cansağlığı arzulayıram.*

*Əziz qardaş, mən Sizin və hörmətli Cəlil Məmmədquluzadənin gözəl əsərlərinin pərəstişkarıyam. Xahiş edirəm, ünvanınızı və telefon nömrəsini yazın mənə göndərin. Əgər inşaallah yolunuz Təbrizə düşdü, mənə telefon eləyin görüşək. Bir də mümükün olsa, mənə bir cild ərəb əlifbası ilə çap olunmuş Cəlil Məmmədquluzadənin əsərlərini göndərəsiniz. Və bir də özünüzün əsərlərinizdən hansı olsa, mənə yadigar göndərin.*

*Hələlik bu qədər Süleyman Salis.*

*Tarixsiz.*

*Rus dilində*

*Əziz dostum Hüseyn Razi!*

*Дорогой друг Гусейн Рази!*

*Извини, буду писать на русском языке. Прежде всего тебе, твоей семье и друзям – товарищам по работе шлю пламенный привет и посылаю свою книгу.*

*На днях приводя в порядок свой архив я обнаружил одно фото и твои стихи, оставленные мне когда ты находился в Казани в гостях.*

*Может быть ты тогда, т.е. в те годы, ожидая появления своих стихов в переводе на татарский язык и не видя их подумал, наверно, что они не понравились товарищам из нашего журнала. Обсолютно нет. Во всем я виноват, оказывается я их просто позабыл предложит редакции...*

*Пишу это письмо по адресу написанным тобой в конце своих стихов. Не знаю работаеш ли ты в нашей родной "Şərq qapısı" ( я это говорю от сердца, потому, что я ведь тоже и очень охотно работал в этой боевой газете).*

*Гусейн, у меня к тебе просьба. Когда получиш это письмо, напиши мне ответ...*

*Через месяц мне исполняется 70 лет. На каких либо торжеств в связи своим юбилеем согласие не давал, поэтому официальное приглашение не будет. Но если дороги притащить тебе в наш край, двери моего дома для моих братьев-друзей из Азербайджана всегда открыты.*

*Обнимаю Rəhman (Габдуррахман Мински).*
*20.8.1976, Казань.*

*Дорогой Гусейн!*

*Не сердитес за мой поздный ответ: я несколько месяцев жил в Москве, потом уезжал в Южную Америку, а Ваще письмо читаю в Ленинграде.*

*Спасибо за перевод. Буду рад, если он сможет выйти*

*отдельной книгой. Джабиру* (Джабир Новруз – Ф.Х.) *я напишу чтобы он проявил внимание к опубликованию перевода.*

*У меня ведь есть и иные стихи связанные с Азербайджаном, которые можно было бы включит в книгую*

*Искренно Ваш Олег Шестински.*

*5.5.1974.*

*Дорогой Гусейн!*

*Поздравляю вас праздником Нахичевани. Рад, что издательство планирует выпуск моей книги на азербайджанском языке.*

*Я бы с удовольствием написал бы предисловие и этой книги, где бы подчекнул свои связи с Кавказом.*

*Что Вы думаете включать в эту книгу из каких моих книг?*

*Рад, что и Мамед Араз, мой товарищ, примет участие в этой книги.*

*«Нева», к сожалению, не стала печатать переводы Ваших стихов, сделанные А.Петровым на том основании, что «Нева» журнал российский и трудов союзных республик печатает очень мало.*

*Искренно желаю Вам здоровье и успехов.*

*Ваш Олег Шестински.*

*19.9.1974.*

*Салам Гусейн муаллим!*

*Еше раз разреши поздравит тебя новым – 1985-м! Пожелать в нем новых хороших переводов и естественно, новых публикации в «Литературном Азербайджане»...*

*Мы планируем дать в ближайшем номере воспоминания писателей-фронтавиков «Один памятный эпизод» . Только один! Понял? Посторайся побыстрее написать для журнала...*

*Крепко жму дружественную руку.*

*М.Петраков.*

*1985.*

## ƏDƏBİ-TƏNQİDİ VƏ PUBLİSİSTİK MƏQALƏLƏRİNİN ƏLİFBA GÖSTƏRİCİSİ

### A


Abadlıq və mədəniyyət qayğıları - 1228
Adət-ənənələr I - 1160
Adət-ənənələr II - 1229
Adət-ənənələrimiz - 1123
Ağbulağın gündüzləri və axşamları - 820
"Ağ çiçəklər"in təravəti - 597
Ağır zəhmətin bəhrəsi - 1047
Axşam duyğuları - 1008
Axtarışlar, tapıntılar - 668
Ailə estafeti - 1161
Akaki Sereteli - 468
Aleksandr Blok - 422
Aleksandr Nikolayeviç Radişşev – 536
Altmış bahar nəğməsi – 1322
Alovlu ürək - 553
Alovlu vətənpərvər - 410
Alovlu yollarda - 1193
Ana olmaq böyük şərəfdir - 922
Ana torpaq - 1531
Anri Barbüs - 411
"Antgiqona" - 649
Araz haqqında povest - 502
Araz məcrasından çıxır - 1048
"Araz" düşərgəsi - 979
"Araz" düşərgəsində - 998
"Araz" pioner düşərgəsində - 1124
Arazın büsatı - 1023
Arazın ilk nəğmələri - 741
Arxa cəbhənin komandirləri - 1049
"Arxamızda Moskvadır" - 514

**Arkadi Qaydar - 416**
**Arpaçayın büsatı - 1258**
**Arpaçayın sabahı - 1024**
**Artıran söz qədrini - 619**
**Artist-rejissor - 927**
**Arzular və qayğılar I - 1401**
**Arzular və qayğılar II - 1474**
**Asaya bacının dedikləri - 894**
**Asudə vaxtın dəyəri - 1424**
**Aşıq Ələsgərin etirazı - 569**
**Aşkarlıq işığında - 1519**
**Aşkarlıq və sənət - 1476**
**Atalar və oğullar - 1475**
**Atalar, oğullar, nəvələr - 1009**
**Aydın şüurun işığında - 1425**
**Ayıq olun, insanlar - 598**
**Azadlıq və humanizm carçısı - 711**
**Azadlıq və sülh carçısı - 650**
**Azər düşünür - 742**
**Azərbaycan sovet ədəbiyyatında xalqlar dostluğu məsələsi - 415**
**Azərbaycanda mədəni inqilabın qələbəsi - 637**

**B**

**Bacılar və qardaşlar - 980**
**Bacılar, qardaşlar, oğullar, qızlar - 1377**
**Bağ və meşə salmaq ikiaylığı - 852**
**Bağlar qoynunda - 853**
**Bağlarda mahnı səsi - 1323**
**Bağların bərəkət palitrası - 1402**
**Bağların şirin neməti - 1283**
**Bağların şirinlik mövsümü - 1351**
**Bahar dolu torpaq - 1050**
**Bahar gələndə - 1504**
**Bahar qayğıları I - 1162**

**Bahar qayğıları II - 1426**
**Bahar qayğıları III - 1456**
**Bahar rayihəli sənət - 636**
**Bahar müjdələri - 1259**
**Baharın səsi gəlir I - 1352**
**Baharın səsi gəlir II - 1427**
**Baharın təntənəsi - 534**
**Bakı haqqında kitab - 554**
**Bakı təəssüratı - 1051**
**Bakıda Naxçıvan günləri I – 1052**
**Bakıda Naxçıvan günləri II - 1053**
**Bakıda Naxçıvan MSSR Mədəniyyət həftəsinin son günləri - 959**
**Bakı-Naxçıvan - 595**
**Bakının qardaşı - 1025**
**Balaxanımın manqasında - 854**
**Baş Noraşen sovetliyindən - 874**
**Başqırdıstan təəssüratları - 1026**
**Batabat lövhələri - 1068**
**Bayram çələngi - 1063**
**Bayram əhval ruhiyyəsi - 1164**
**Bayram nümayişi I - 875**
**Bayram nümayişi II - 876**
**Bayram nümayişi III - 1230**
**Bayram palitrası - 1194**
**Bayram repertuarı - 1165**
**Bayram sevinci - 1195**
**Bayram töhfələri - 1190**
**Becərməni ləngitmək olmaz -816**
**Belə işləməzlər I - 840**
**Belə işləməzlər II - 855**
**Beşillikdən beşilliyə I - 1232**
**Beşillikdən beşilliyə II - 1430**
**Beşilliyin qabaqcılları - 1379**

**Beşilliyin qabaqcılları haqqında söhbət – 1196**
**Beşilliyin qabaqcılları haqqında söhbətlər - 1381**
**Beşilliyin qabaqcılları ilə söhbətlər - 1378**
**Beşinci bahar - 1428**
**Beşinci baharın qayğıları - 1429**
**Bədii özfəaliyyət festivalı - 1231**
**Bədii özfəaliyyət və repertuar - 1431**
**Bədii özfəaliyyətə qayğı I - 1167**
**Bədii özfəaliyyətə qayğı II - 1197**
**Bədii vüsət və keyfiyyət I - 661**
**Bədii vüsət və keyfiyyət II - 727**
**Bədii özfəaliyyət kollektivləri - 999**
**Bəhram kişinin ailəsi - 877**
**Bərəkət qaynaqları - 1382**
**Bərəkət mövsümü I - 1340**
**Bərəkət mövsümü I - 1403**
**Bərəkət sorağında - 1341**
**Bəs kimə dəxli var - 841**
**Bəstəkar Şəfiqə Axundova Naxçıvanda - 1000**
**Bəstəkarın publisistikası - 754**
**Bəşəri duyğular şairi: A.Dante - 467**
**Bəşəri duyğular şairi: M.P.Vaqif - 515**
**Bəşəri fikirlər romantikası - 676**
**Bəyənmir məni - 878**
**Bir ailə kimi - 856**
**Bir ailənin üzvləri - 896**
**Bir dünya fərəh - 1520**
**1 Mayın bayram xatirəsi - 1141**
**Bir neçə söz - 452**
**Bir növbənin qızları - 940**
**Bir ömrün səhifələri - 1383**
**Birlik olan yerdə - 1198**
**Bizim küçə - 1168**

**Bol pambıq məhsulu uğrunda - 797**
**Bol yonca uğrunda - 798**
**Bolluq və bərəkət mövsümü - 1353**
**Bolluq və gözəllik diyarı - 981**
**Böyük alimin əxlaq fəlsəfəsi - 790**
**Böyük alimin yubileyi şərəfinə - 1432**
**Böyük amal uğrunda - 1027**
**Böyük bayram şənliyi - 1094**
**Böyük bəstəkar - 745**
**Böyük cavabdehlik duyğusu - 1505**
**Böyük dostluq körpüsü – 1028**
**Böyük dostluq poeziyası - 641**
**Böyük dostluğun nümayişi - 1294**
**Böyük əməllər mövqeyində - 1384**
**Böyük həqiqətin keşiyində - 764**
**Böyük hüquqların büsatı - 1091**
**Böyük xalq məhəbbəti - 489**
**Böyük quruculuq və sülh ili - 828**
**Böyük mahnı bayramı - 1260**
**Böyük məhəbbətin ifadəsi - 570**
**Böyük mütəfəkkir alim - 694**
**Böyük mütəfəkkir, humanist sənətkar – 678**
**Böyük poeziya çələngi - 680**
**Böyük poeziya işığında - 755**
**Böyük poeziya ustadı - 695**
**Böyük realist yazıçı - 417**
**Böyük romantika dünyası - 746**
**Böyük satira ustası -713**
**Böyük sənət bayramı - 1092**
**Böyük sənət və müasirlik - 1126**
**Böyük sənət, qüdrətli sənətkar - 775**
**Böyük sənətin qüdrəti - 1093**
**Böyük sənətkar yad edilir - 1385**

**Böyük şahmat ustası - 1095**
**Böyük şairin xatirə gecəsi - 1477**
**Böyük şairlə görüş - 604**
**Böyük ustad - 425**
**Böyük və ölməz yazıçı - 412**
**Birlik olan yerdə - 1198**
**Bu, pis hazırlığın nəticəsidir - 879**
**Bura məskənidir gözəlliklərin -1284**
**Burda direktor mənəm - 842**
**Bütöv poeziya çələngi - 679**
**Bütün briqada və manqalar qabaqcıl olmalıdır I - 817**
**Bütün briqada və manqalar qabaqcıl olmalıdır II - 829**

**C**

**Can sağlığı keşiyində - 857**
**Cavabsız suallar - 1069**
**Cəbhə yollarında - 1404**
**Cəbhədən cəbhəyə - 1433**
**Cığırlar yola dönür - 1295**
**Con Rid - 503**
**Coşqun ilham qaynaqları - 730**
**Culfa Maşın Traktor Stansiyası geridə qalır - 818**
**Culfada oxucular konfransı - 960**

**Ç**

**Çaylar damlalardan yaranır - 756**
**Çexoslovakiyanın milli qəhrəmanı - 834**
**Çeşməli, sulu dağlar - 1521**
**Çətin yollar ayrıcında - 1522**
**Çinarlı, baharlı misralar - 680**
**Çobanın qoçaqlığı - 796**
**Çörək şəlaləsi - 1199**
**Çörəyi ver çörəkçiyə - 1478**
**Çürük ehkamlara qarşı - 490**

**D**

**Dad yarımçıq əlindən - 1522**
**Dağ çiçəyi - 559**
**Dağ dağa soykənər I - 1096**
**Dağ dağa söykənər I - 1169**
**Dağ kəndində I - 898**
**Dağ kəndində I - 899**
**Dağ yolunda söhbət - 1434**
**Dağıstanın xalq şairi – 444**
**Dağlar dağımdı mənim - 1506**
**Dağlar qoynunda -899**
**Dağlara dəniz gəlir - 1200**
**Dağlarda əks-səda - 1070**
**Dağların sahibi kimi - 1233**
**Dahi sənətkar, böyük insan - 518**
**Dahi söz ustası - 420**
**Dahi şair - 453**
**Daxili imkanlardan geniş istifadə olunacaqdır - 900**
**"Dan ulduzu" - 507**
**Dauqova sahilində bahar - 1262**
**Deyilməmiş sözün varsa - 602**
**Deyin, gülün, balalar - 1354**
**Deyin, gülün, əziz balalar - 880**
**Deyin, gülün, uşaqlar - 948**
**Dənizçi, inqilabçı, yazıçı - 504**
**Dənizin səsi gəlir - 1127**
**Dərya yaradanlar - 1054**
**Dəzgah arxasında - 835**
**Didivar kəndində bir gün - 929**
**Direktorun qeyd dəftərindən - 1170**
**Dmitri İvanoviç Pisarev – 472**
**Dmitrov kolxozunda - 807**
**Dnepr sahilində məşəl I - 1029**
**Dnepr sahilində məşəl II - 1055**

**Doğma torpaq - 1171**
**Dolaşıq iş - 843**
**Dolğun misralar axtarışında - 1262**
**Dolğun səs, solğun həvəs I - 669**
**Dolğun səs, solğun həvəs II - 714**
**Dolğun səs, solğun həvəs III - 731**
**Dolğun səs, solğun həvəs IV - 747**
**Dolğun və solğun misralar I - 642**
**Dolğun və solğun misralar II - 765**
**Dostlarla bir yerdə - 928**
**Dostluğun parlaq nümayişi I - 1296**
**Dostluğun parlaq nümayişi II - 1297**
**Dostluq çələngi - 961**
**Dostluq nəğməkarı: Y.Kupala – 584**
**Dostluq nəğməkarı: M.Tank - 587**
**Dostluq səhifələri - 588**
**Dostluq və sənət bayramı - 1097**
**Dostluq yarışı - 982**
**“Dovşanın ad günü” - 573**
**Dördüncü baharın müjdələri- 1166**
**Dördüncü baharın üfüqləri - 1293**
**4,5 milyon manatlıq mebel istehsal ediləcəkdir - 901**
**Dözüm və mətanət poeziyası - 785**
**Dramaturgiyamızın iftixarı I - 715,**
**Dramaturgiyamızın iftixarı II - 786**
**Dramaturqun poeziyası - 670**
**Duru və quru sətirlər - 651**
**Duyğular və səslər aləmində - 949**
**Duz ustaları - 836**
**“Dübəndi çayı”nın nəğmələri - 606**
**Dünya elminin iftixarı - 696**
**Dünya şöhrətli sənətkar - 780**

**E**

**Ekran və mənəvi tərbiyə - 1298**
**El bilir ki, sən mənimsən - 1223**
**El gücü, sel gücü I - 1098**
**El gücü, sel gücü I - 1128**
**Eldən hərəkət, çöldən bərəkət - 1524**
**Elin gözü, elin sözü - 1457**
**“Elm” nəşriyyatının töhfəsi - 681**
**Elmi ateizmə dair kitablar - 630**
**Estetik eskizlər silsiləsi - 716**
**“Ezop” əsəri Naxçıvan Dövlət Musiqili Dram Teatrında - 491**
**Ə**
**Əbədi qardaşlıq ədəbiyyatı - 589**
**Əcəmi sənətinin qüdrəti - 1234**
**“Ədalət” - 446**
**Ədalətin təntənəsi - 777**
**Ədəbi-bədii axşam - 1479**
**Ədəbiyyat və incəsənət xəbərləri – 1405, 1406, 1435, 1458**
**Ədəbiyyatımızın iftixarı -697**
**Əfsanələr və həqiqətlər - 638**
